## Azərbaycan Ordusunun Kəlbəcərdəki mövqeləri atəşə tutulub



Noyabrın 30-u saat 19:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Bəzirxana yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

*Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib. Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.*



## Goranboyda zəlzələ olub

Goranboyda zəlzələ baş verib. Respublika Seysmoloji Xidmət Mərkəzindən verilən məlumata görə, zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, yerli vaxtla saat 16:50-də Gəncə stansiyasından 29 km cənub-şərqdə Goranboy rayonunda zəlzələ qeydə alınıb.

*Maqnitudası 3.8-ə bərabər olan zəlzələ episentrdə hiss edilib. Zəlzələnin dərinliyi 20 km olub.*


№ 219 (5740), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 dekabr 2022-ci il (cümə axşamı)




## 12 min manat cəriməsi var

Mobil cihazlar mütləq qeydiyyata alınmalıdır

**Mobil cihazın qeydiyyatının aparılmasından yayınmaq məqsədilə mobil cihazın İMEİ nömrəsinin dəyişdirilməsinə və ya surətinin köçürülməsinə görə cərimələr müəyyən edilir.**

Bu barədə məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin dünən keçirilən iclasında müzakirə edilən İnzibati Xətalar Məcəlləsinə yeni təklif edilən maddədə əksini tapıb.

Dəyişikliyə əsasən, fiziki şəxslər 300 manatdan 400 manatadək, vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək, hüquqi şəxslər 3 min manatdan 4 min manatadək məbləğdə cərimə ediləcək.

*Qeyd olunan xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbehvermə haqqında qərar qüvvəyə mindiyi gündən 1 il ərzində təkrar törədilməsinə görə fiziki şəxslər 600 manatdan 800 manatadək, vəzifəli şəxslər 2 min manatdan 2 min 500 manatadək, hüquqi şəxslər 9 min manatdan 12 min manatadək məbləğdə cərimə ediləcək.*

*Qanun qəbul edildiyi halda 2023-cü il aprelin 1-dən qüvvəyə minəcək.*




## "Ermənistan öhdəliklərini yerinə yetirmir, sülhə mane olur"

Ceyhun Bayramov Avropadan 30-a yaxın düşüncə və tədqiqat mərkəzlərinin nümayəndələrinin qatıldığı tədbirdə çıxış edib

**30 noyabr tarixində xarici işlər naziri Ceyhun Bayramov Polşanın paytaxtı Varşava şəhərində Azərbaycanşünaslıq üzrə I Avropa Konfransı çərçivəsində "Bölgədə yeni reallıqlar: Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının və davamlı sülhün perspektivləri" mövzusunda tədbirdə iştirak edib.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Avropadan 30-a yaxın düşüncə və tədqiqat mərkəzlərinin nümayəndələrinin qatıldığı tədbirdə Nazir Ceyhun Bayramov çıxış edib. Nazir Ceyhun Bayramov çıxış zamanı Azərbaycanın xarici siyasət prioritetləri, Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar nəzərə alınmaqla bölgədə sülh və əmin-amanlığın təmin edilməsi istiqamətində səyləri barədə ətraflı məlumat verib.

## Dekabrın 5-də Moskvada görüş olacaq

Azərbaycan və Rusiya XİN başçıları bir araya gələcək



**Dekabrın 5-də Moskvada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla rusiyalı həmkarı Sergey Lavrov arasında görüş keçiriləcək.**

TASS xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bu gün keçirdiyi həftəlik brifinqdə məlumat verib. Görüşdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi müzakirə olunacaq.

# İrəvanın məqsədi sülhü uzatmaqdır

Brüssel formatı ilə bağlı gözləntilər pozitiv deyil



"Rəsmi Bakı konkret həllə doğru addımlar, qərarlar istəyir"

**ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Riker noyabrın 28-29-da Azərbaycanda səfərdə oldu. Dövlət başçısı İlham Əliyevin qəbulunda olan Filip Riker xarici işlər naziri Ceyhun Bayramovla da görüşüb.**

Görüşdə Azərbaycan-Ermənistan normallaşma prosesi, Vaşinqton görüşü də daxil sülh müqaviləsinin elementləri üzrə aparılan ikitərəfli danışıqlar və bundan irəli gələn məsələlər, kommunikasiyaların açılması və delimitasiya prosesi üzrə cari vəziyyət müzakirə olunub.

(səh.3)

# Böyük narazılıq yarandı




## Anti-Türkiyə filmi Bakıda nümayiş etdirilməyəcək

**Anti-Türkiyə mövzusunda lentə alınmış "Odda - İki bacı" ("Sisters apart") filminin yayımına cəhd edilməsi ölkəmizdə narazılığa səbəb olub.**

Bakı kinoteatrları Türkiyəyə qarşı çəkilmiş filmin nümayişindən imtina edib. Lakin buna baxmayaraq Almaniyanın Bakıdakı səfirliyi və Aİ-nin Azərbaycandakı nümayəndəliyi filmi gələn həftə "Landmark"da nümayiş etdirmək niyyətindədir. Bununla bağlı səfirlik sosial şəbəkədə elan yayıb. Elanda bildirilir:

"Almaniyanın Bakıdakı səfirliyi Aİ-nin Azərbaycandakı nümayəndəliyi ilə birlikdə sizi film nümayişinə dəvət edir. "Odda - İki Bacı". Təəssüf ki, bundan qabaq kinoteatrın filmi qısa müddətdə təxirə salması səbəbindən Aİ Film Festivalında göstərilə bilmədi. Nümayiş 5 dekabr 2022-ci il bazar ertəsi saat 19:00-da baş tutacaq. "Landmark" kinoteatr zalında ("CineClub", 1-ci mərtəbə), Ünvan: Nizami küç. 90A. Film orijinal alman versiyasında ingilis subtitrləri ilə nümayiş etdiriləcək.

(səh.3)



## Vaşinqton Tehranı hədəf lövhəsinə qoyur

Yaxın gələcəkdə ABŞ Azərbaycanla hərbi əməkdaşlıq formatını yeniləyəcək

**"ABŞ-nin xarici siyasətində enerji məsələlərinə əl qoymaq və təhlükəsizlik ovqatını həmin enerji ilə yükləmək mühüm yer tutur. Bu mənada faydalı təbii resurslara malik olan Xəzər dənizi də Vaşinqtonun nəzərlərində ayrıca bir dəyər qazanır".**

*Bu sözləri "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağı hesab olunur. Açılacaq Zəngəzur dəhlizi bəşəri ticarət marşrutlarının şaxələnməsi prizmasından çəki qazanacaq...*

(səh.4)

## Xırdalan şəhərinə metro xətti hava-su kimi lazımdır

Bakıda 9 yeni stansiyanın tikintisi ictimai nəqliyyatın yükünü azaldacaq



**Bakıda doqquz yeni metro stansiyası tikiləcək.**

Bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov "ATV Səhər"ə proqramında bildirib. Onun sözlərinə görə, yeni stansiyalardan 3-ü "Dərnəgül" və "Koroğlu" stansiyaları arasında yerləşəcək. İki metro stansiyası Ziya Bünyatov prospektinin, üçüncüsü isə "Koroğlu" stansiyasının yaxınlığında tikiləcək. Digər yeni stansiyalar Ağ Şəhərdə, NSZ qəsəbəsində, eləcə də köhnə avtomobil zavodunun yaxınlığında tikiləcək.

(səh.7)

## 2 nəfər vəfat edib

Son sutkada 49 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 49 yeni yoluxma faktı qeydə alınıb, 2 nəfər vəfat edib, 50 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

İndiyədək ölkədə ümumilikdə 824 337 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 814 103 nəfər müalicə olunaraq sağalıb, hazırda 254 aktiv xəstə var. Bu günə qədər 9 980 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 784, bu günə qədər isə ümumilikdə 7 375 442 test icra olunub.*



## "Naxçıvanın idarəçiliyi ilə bağlı islahatlara ehtiyac var"

Pənah Hüseyn: "Modellərdən biri bölgəyə Prezidentin səlahiyyətli nümayəndəsinin təyin olunmasıdır"

(səh.3)



## Çoxdan müdaxilə lazım idi

Tural Abbaslı: "Naxçıvanda davam edən maliyyə yoxlamalarını alqışlayırıq"

(səh.2)

# "Ermənistan öhdəliklərini yerinə yetirmir, sülhə mane olur"

## Ceyhun Bayramov Avropadan 30-a yaxın düşüncə və tədqiqat mərkəzlərinin nümayəndələrinin qatıldığı tədbirdə çıxış edib






**30 noyabr tarixində xarici işlər naziri Ceyhun Bayramov Polşanın paytaxtı Varşava şəhərində Azərbaycanşünaslıq üzrə I Avropa Konfransı çərçivəsində "Bölgədə yeni reallıqlar: Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının və davamlı sülhün perspektivləri" mövzusunda tədbirdə iştirak edib.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Avropadan 30-a yaxın düşüncə və tədqiqat mərkəzlərinin nümayəndələrinin qatıldığı tədbirdə Nazir Ceyhun Bayramov çıxış edib.

Nazir Ceyhun Bayramov çıxış zamanı Azərbaycanın xarici siyasət prioritetləri, Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar nəzərə alınmaqla bölgədə sülh və əmin-amanlığın təmin edilməsi istiqamətində səyləri barədə ətraflı məlumat verib. Nazir, eyni zamanda Ermənistanla sülh gündəliyi üzrə təkliflər, aparılan danışıqlarda Azərbaycanın mövqeyi və yanaşması barədə iştirakçıları məlumatlandırıb.

Azərbaycanın bölgədə apardığı bərpa və quruculuq işlərinin, kommunikasiyaların açılması istiqamətində fəaliyyətin bütün bölgənin rifahı üçün əhəmiyyətli olduğu diqqətə çatdırılıb. Bununla yanaşı, Azərbaycanın sülh gündəliyinin irəli aparılması istiqamətində səylərinə və təkliflərinə baxmayaraq, Ermənistanın 2020-ci il Üçtərəfli Bəyanatdan və Azərbaycan-Ermənistan liderləri arasında digər razılıqlardan irəli gələn öhdəliklərini yerinə yetirməməsi, normallaşma prosesinə və bölgədə davamlı sülhün bərqərar olmasına maneçilik törətdiyi bildirilib. Bölgədə davam edən mina təhdidləri və Ermənistan tərəfindən bu istiqamətdə həyata keçirilən təxribatlara diqqət yönəldilib.

Son dövrlərdə bölgədə və dünyada baş verən hadisələr fonunda enerji təhlükəsizliyinin artan əhəmiyyətindən bəhs edən nazir Ceyhun Bayramov, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində çoxtərəfli əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Alternativ enerji mənbələrindən istifadə sahəsində geniş potensiala malik ölkə kimi Azərbaycanın bu sahədə əməkdaşlığın inkişaf etdirilməsinə əhəmiyyət verdiyi qeyd olunub, bu xüsusda cari ilin iyul ayında Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov Şərq-Qərb Orta Dəhlizi boyunca bağlantıların gücləndirilməsi istiqamətində Azərbaycanın bir sıra uğurlu layihələr icra etdiyini, Vətən müharibəsindən sonra nəqliyyat-kommunikasiya yollarının bərpası istiqamətində işlər həyata keçirildiyini diqqətə çatdırıb. 10 noyabr 2020-ci il tarixində imzalanmış Üçtərəfli Bəyanatın 9-cu bəndi çərçivəsində Ermənistanın öhdəliklərini yerinə yetirməsinin vacib olduğunu, bölgədə bütün nəqliyyat və kommunikasiyaların açılmasının inkişafa mühüm töhfə olacağını bildirib.

*Daha sonra, nazir Ceyhun Bayramov iştirakçıların çoxsaylı suallarını cavablandırıb.*

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan**



# Prezident İlham Əliyev Fərman imzalayıb

## Rəqəmsal xidmətlərin genişləndirilməsi məqsədilə normativ hüquqi aktlar təkmilləşdiriləcək

**Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.**

Fərmanla "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alınır:

- Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- əmək münasibətləri, dövlət sosial sığorta sistemində fərdi uçot və məşğulluq sahələrində rəqəmsal xidmətlərin genişləndirilməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 211-ci maddəsinin birinci hissəsinin beşinci abzasına uyğun olaraq, hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin və həmin hissənin altıncı abzasına uyğun olaraq, hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahılarını və onların tətbiqi qaydalarını üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

- "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

- "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının 2-ci hissəsinin üçüncü abzasından "241-ci maddəsinin altıncı hissəsində," sözləri çıxarılsın.

# Ankara İrəvandan cavab gözləyir

## "Zəngəzur dəhlizinin açılması Türkiyə üçün şərəf məsələsidir"



**"Sərhədin açılması üçün texniki işlər aparılıb. Proses müsbət istiqamətdə davam edir".**

**Bunu Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın "Haber7" telekanalına verdiyi xüsusi müsahibə zamanı ölkəsinin Ermənistanla sərhədlərinin açılması barədə sualı cavablandırarkən deyib.**

İ.Kalının sözlərinə görə, Ermənistanla Azərbaycan arasındakı proseslərin bu məcrada irəliləməsi zəruridir. Danışıqlar konstruktiv şəkildə davam etdirilir. 30 ildir qurulması mümkün olmayan əlaqələr bərpa olunur. Qarabağ məsələsi həll olundu. Eyni zamanda Azərbaycanın Ermənistanla bağlı gözləntiləri var. Müvafiq vaxt və şərtlər daxilində addımlar atıla bilər.

**Türkiyə ilə uzun illər boyunca sərhədlərin açılmasının başlıca şərti kimi Qarabağ məsələsinin həll edilməsini tələb etdiyini deyən siyasi şərhçi Fuad Abbasov "Şərq"ə söyləyib ki, Azərbaycan Prezidentinin verdiyi açıqlamayla isə Qarabağ problemi həll olunmuş sayılır:**

"Türkiyə prezidentinin də sözünü tutması lazım idi. Ona görə də Ankara İbrahim Kalının vasitəsilə xoş niyyətini sərgiləyərək, sərhədlərin açılması yönündə texniki işlərin aparıldığını açıqlayır. Yeni Ermənistan tərəfinə pas verir ki, sizin təklifləriniz nədən ibarətdir. Əminəm ki, Azərbaycan və Türkiyə arasındakı əlaqələrin indiki vəziyyətində, Zəngəzur dəhlizinin açılmaması şərtində Ankara ilə İrəvan arasında nəinki sərhədlər açılmayacaq, heç diplomatik əlaqələr də qurulmayacaq. Çünki Zəngəzur dəhlizi türk dünyası üçün çox vacibdir və bu, Türkiyə üçün şərəf məsələsidir. Ermənistan əgər ən yaxın müttəfiqi olan Rusiya və Azərbaycanın iştirakı ilə bağlanan müqaviləyə riayət etmirsə, yeni əlaqələr quracağı Türkiyə ilə bağlanacaq müqaviləyə heç əməl etməz. Bu da Ermənistan tərəfini etibarsız partnyor səviyyəsinə gətirmiş olacaq. Digər tərəfdən İrəvan Ankara tərəfindən verilən pası müsbət siqnal kimi qəbul etsə, Zəngəzur dəhlizinin açılması barəsində yeni bir açıqlama eşidə bilərik".

**Nihat**

# Çoxdan müdaxilə lazım idi

## Tural Abbaslı: "Naxçıvanda davam edən maliyyə yoxlamalarını alqışlayırıq"



"İllərlə camaatın başına açılan oyunların cəzasını verməlidirlər. Eyni zamanda Naxçıvanın Bakıya birbaşa tabe etdirilməsi də labüddür"

**Son günlər DTX-nin Naxçıvanda keçirdiyi əməliyyat, aparılan araşdırmalar zamanı külli miqdarda mənimsəmə, yeyinti faktlarının aşkarlanması cəmiyyətdə geniş müzakirələrə səbəb olub.**

Yoxlamaların aparıldığı bütün qurumlarda ciddi nöqsanların, maliyyə yeyintilərinin və qanunsuzluqların üzə çıxdığı deyilir. Yayılan xəbərlərə görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun kiçik oğlu Seymur Talıbov Naxçıvan Dövlət Universitetinin prorektoru vəzifəsindən azad edilib. Vasif Talıbovun qardaşı Məhərrəm Talıbovun saxlanılması barədə də xəbər yayılıb. Bəzi saytlarda gedən məlumata görə, Məhərrəm Talıbov Naxçıvandakı antikorrupsiya əməliyyatlarına görə dindirilmək üçün Bakıya gətirilib. Qeyd edək ki, Məhərrəm Talıbov Naxçıvan Prokurorluğunda müavin vəzifəsini daşıyır.

**Naxçıvanda aparılan yoxlamalarla bağlı "Şərq"ə danışan AĞ Partiya sədri Tural Abbaslı deyib ki, Muxtar Respublikada baş verən hadisələrə çoxdan müdaxilə etmək lazım idi. Partiya rəhbərinin sözlərinə görə, Naxçıvan özünü "müstəqil dövlət" kimi aparırdı:** "Naxçıvan bir çox hallarda mərkəzin, Bakının qərarlarına tabe olmurdu. Biz bunu pandemiyada və gömrük məsələsində gördük. Kimsə Bakıdan Naxçıvana mal aparırsa, onu yerli gömrükdən də keçirtməli idi. O cümlədən naxçıvanlıların Naxçıvandan kənarda, Bakıda hansısa sənəd almalarında da problemlər var. Bu problemləri efirdən dəfələrlə gündəmə gətirmişik və buna görə bizə qarşı kampaniya təşkil olunmuşdu, hücumlar var idi. O baxımdan Naxçıvanda davam edən maliyyə yoxlamalarını alqışlayırıq. Hesab edirik ki, təkcə maliyyə və gömrük deyil, digər strukturlarda da ciddi araşdırmalar aparılmalıdır. İllərlə camaatın başına açılan oyunların cəzasını verməlidirlər. Eyni zamanda Naxçıvanın Bakıya birbaşa tabe etdirilməsi də labüddür. Artıq proses başlayıb. Naxçıvandakı bütün nazirliklər idarə halına salınaraq Bakıya tabe edilməlidir. Referendum keçirilməli və Naxçıvanın muxtar respublika statusu ləğv olunmalıdır. Unitar dövlətdə muxtar respublikanın olması anlaşılmazdır".

**İsmayıl Qocayev**

**"Son etirazlar zamanı İranda 1700-ə yaxın şəxs həbs olunub". Bunu etnik məsələlər və qadın hüquqları üzrə aktivist, "Ərk" insan hüquqlarının müdafiəsi təşkilatının həmtəsisçisi Jalə Təbrizli "Urmu gölünün harayı" adlı tədbirdə deyib.**

O bildirib ki, hazırda onların siyahısında həbs edilən 500 nəfərin adı var: "Həmçinin güllələnərək öldürülənlər də var. İl ərzində ümumilikdə etirazlara görə, 2-3 min şəxs saxlanılır. Biz onlar barəsində beynəlxalq təşkilatlara mütəmadi məlumat veririk". Güneyli hüquq müdafiəçisi Təbrizin iqtisadi durumunun pisləşdiyini bildirib.



# İranda türk qadınlar, uşaqlar zülm görür

## "İran rejimi siyasətini yüz ildən çoxdur Azərbaycan, türk düşmənçiliyi üzərində qurub"

**Jalə Təbrizli deyib ki, İranda bizim qadınlarımız uzun müddətdir zülmə məruz qalırlar. O qeyd edib ki, İrandakı islam rejimi qadın haqlarını tanınmır:** "Qadına kişinin yarısı kimi münasibət göstərilir. Baş örtüyü məcburidir. Xüsusən də türk olan qadınlar zülm görür. Həm qadın, həm də türk olduqları üçün irqi ayrı-seçkiliyə məruz qalırlar. Bundan başqa uşaqlarımız ana dilində təhsil ala bilmir. Hər uşaq məktəbə gedəndə sevinər, amma bizim uşaqlarımız ağlayırlar. Çünki müəllimin dilini bilmirlər. Bu səbəbdən də çoxları savadsız qalır".

### "İran hökuməti Urmiya gölünün bərpası üçün heç bir addım atmayıb"

J.Təbrizli vurğulayıb ki, beynəlxalq təşkilatlar, bəzi xarici dövlətlər Urmiya gölünün qurumasının qarşısını almaq üçün kifayət qədər vəsait ayırmışdı. Lakin İran hökuməti bunu özünə xərclədi və Urmiya gölü üçün heç bir addım atılmadı: "Gölün qurumasının əsas səbəbi suyun qabağının kəsilməsi, əkinçiliyin plansız formada genişləndirilməsidir".

### "Təbriz Məşrutə inqilabından əvvəl ən inkişaf etmiş şəhər idi"

Yazıçı, jurnalist və Güney Azərbaycan milli hərəkatı üzrə ekspert Maşallah Rəzmi deyib ki, Təbriz Məşrutə inqilabından əvvəl ən inkişaf etmiş şəhər idi. O bildirib ki, həmçinin Pəhləvi dövründə, İslam inqilabına qədər Təbriz ölkədə 5-ci yerdə qərarlaşmışdı. Lakin indi Təbriz ölkədə iqtisadi durumuna görə 11-ci şəhərdir: "100 ildə Təbrizi 11-ci sıraya salıblar. Təbriz yaxınlığında "Əndəryan" qızıl mədəni yerləşir. Bu, Yaxın Şərqdə ən böyük qızıl mədənidir. İran Rusiya ilə müqavilə bağlayaraq bu yatağı istismar edir. Ordan nə qədər qızıl çıxarıldığı və hara getdiyi haqda xalqa hesabat verilmir. İkinci bir yataq "Süngün" mis mədənidir. Bu da ikinci ən böyük mis mədənidir. Buradan çıxarılan mis ya Kirmana aparılır, ya da Çinə ixrac edilir. Sərvətlərimiz talanır və xalqa heç bir açıqlama verilmir".

### "Urmiya gölünün qurudulmasında məqsəd 16 milyon azərbaycanlını didərgin salmaqdır"

"Güney Azərbaycan Demokratik Türk Birliyi" təşkilatının sədri Əjdər Tağızadə deyib ki, Urmiya gölünün İran tərəfindən qurudulması siyasi məsələyə çevrilib və məqsəd 16 milyon azərbaycanlını didərgin salmaqdır. Ə.Tağızadə qeyd edib ki, Urmiya gölünün qurudulması ciddi ekoloji problem yaradır: "İranda çaylar da, göllər də qurudulur. İranda su mafiyası var, suyu oğurlayırlar və bunun da başında dövlət dayanır. Urmiya gölünün qurudulması siyasi məsələyə çevrilib və dərin milli münaqişə yaradır. Gölün suyunun 90 faizdən artığı quruyub. Gölün qurudulması ilə bağlı məsələyə münasibət bildirənləri də həbs edirlər".

### "İran hakimiyyəti Cənubi Azərbaycanın yeraltı və yerüstü sərvətlərini talayır"

Güney azərbaycanlı ekspert Səttar Sevgin bildirib ki, İran azərbaycanlıları farslaşdırmağa, assimilyasiyaya məruz qoymağa çalışır. O qeyd edib ki, İran rejimi Cənubi Azərbaycanın yeraltı sərvətlərini talayır: "İstehsal müəssisələri daha çox fars bölgələrində açılır. Məqsəd Cənubi azərbaycanlıları iş tapmaq üçün fars bölgəsinə getməyə vadar etməkdir. Urmiya gölünün qurudulması da azərbaycanlıları bölgədən didərgin salmaq siyasətinin tərkib hissəsidir". Sevgin bildirib ki, İran hakimiyyətinin yürütdüyü plansız və Güney Azərbaycanın təbiətinə laqeyd münasibətin nəticəsində Urmiya gölü quruyur. O qeyd edib ki, Urmiya gölünün qurudulması ilə bağlı İran ərazisində, eləcə də ölkədən kənarda, həmçinin Bakı şəhərində İran səfirliyinin qarşısında müxtəlif qurumlar tərəfindən dəfələrlə etiraz aksiyaları keçirilsə də, İran hökuməti indiyədək ciddi tədbir görməyib: "Əksinə, rəsmi Tehran tərəfindən həmin insanlar siyasi və fiziki təqiblərə məruz qalır, həbs edilir, fəalların gözünün qorxudulması üçün müxtəlif işgəncələr tətbiq olunur". Onun sözlərinə görə, İran hakimiyyəti Cənubi Azərbaycanın yeraltı və yerüstü sərvətlərini istismar edərək farsdilli əyalətlərin abadlaşmasına və inkişafına xərcləyir: "Azərbaycanın inkişafını İranın gözü götürmür. Qarabağın işğalında da İranın birbaşa əli olub".

### "İran rejiminin Urmiya gölünü qurutmaqda məqsədi insanları tarixi torpaqlarından uzaqlaşdırmaqdır"

"Beynəlxalq hüquq sahəsində maariflləndirmə və tədqiqatlar" İctimai Birliyinin sədri Səftər Rəhimli bəyan edib ki, İran rejiminin Urmiya gölünü qurutmaqda məqsədi insanları tarixi torpaqlarından uzaqlaşdırmaqdır. O qeyd edib ki, İran hakimiyyəti Güney Azərbaycana münasibətdə ayrı-seçkiliyə yol verir: "Bəşəriyyət üçün təhlükə olan bu problem barəsində xeyli sənəd imzalansa da, qərarlar yalnız kağız üzərində qalır. Ətraf ərazilərdə yaşayan, əksəriyyəti azərbaycanlılardan ibarət olan əhalinin ürək ağrısı ilə dilə gətirdiyi Urmiya gölü İranın ən böyük vilayətlərindən olan Qərbi və Şərqi Azərbaycan arasında yerləşir". S.Rəhimli bildirib ki, dünyanın ən duzlu üçüncü gölü olan və daha çox soydaşlarımızın məskunlaşdığı bölgələrdə ekoloji böhranın dərinləşməsinin qarşısını alan Urmiya gölünün quruması prosesinin hələ də davam etməsi ciddi narahatlıq yaradır: "İran rejiminin gölü qurutmaqda məqsədi insanları tarixi torpaqlarından uzaqlaşdırmaqdır. Fars rejiminin bölgədə apardığı siyasətin mahiyyəti də bəllidir".

Güney azərbaycanlı ekspert Babək Azəroğlu deyib ki, İran əlindən gəldiyi qədər türklərə ziyan vurmağa çalışır: "Urmiya gölünün qurudulması birbaşa bu siyasətə xidmət edir. Məqsəd insanları yaşadıqları yerdən didərgin salmaq və onların başını digər problemlərlə qatmaqdır. Düşünürəm ki, onların bu siyasəti baş tutmayacaq".

**İsmayıl**



# İrəvanın məqsədi sülhü uzatmaqdır

Brüssel formatı ilə bağlı gözləntilər pozitiv deyil

"Rəsmi Bakı konkret həllə doğru addımlar, qərarlar istəyir"

**ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Riker noyabrın 28-29-da Azərbaycanda səfərdə oldu. Dövlət başçısı İlham Əliyevin qəbulunda olan Filip Riker xarici işlər naziri Ceyhun Bayramovla da görüşüb.**

Görüşdə Azərbaycan-Ermənistan normallaşma prosesi, Vaşinqton görüşü də daxil sülh müqaviləsinin elementləri üzrə aparılan ikitərəfli danışıqlar və bundan irəli gələn məsələlər, kommunikasiyaların açılması və delimitasiya prosesi üzrə cari vəziyyət müzakirə olunub. Riker Amerikanın Azərbaycan və Ermənistan arasında birbaşa danışıqlara davamlı dəstəyini vurğulayıb. Daha sonra mətbuata açıqlama verən Riker sülh prosesinin asan olmadığını qeyd etsə də, sülh danışıqları zamanı əldə edilən impulsun saxlanıla biləcəyini deyib: "Hər iki ölkə tərəfindən real və cəsarətli addımları müşahidə edirəm. Mən indi Bakıdayam, buradan da Tbilisiyə və İrəvana səfər edəcəm". Məlumat üçün qeyd edək ki, Azərbaycan-Ermənistan sülh danışıqları əsasən 2 platformada - Soçi və Brüssel formatı müstəvisində gedir. Son olaraq buna "Vaşinqton sənədi" adı verilən üçüncü format da daxil edilib. Lakin hələlik heç bir platformada real irəliləyiş gözə dəymir.

**ABŞ rəsmisinin səfərini və açıqlamasını "Şərq"ə dəyərləndirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Azərbaycan və Ermənistan tərəfi arasında sülh danışıqlarının Soçi formatında müəyyən aktivlik var.** Politoloq xatırladıb ki, Rusiya Prezidenti V.Putin son günlərdə bir neçə dəfə ardıcıl Bakıya zəng edib, dövlət başçısı İlham Əliyevlə müzakirələr aparıb. Eyni zamanda Putin Ermənistan Baş naziri Nikol Paşinyanla da əlaqə saxlayıb: "Brüssel formatı da Paşinyanın Fransa ilə bağlı tələbinə görə problemlə üzləşdi. Vaşinqton formatı iki ölkənin xarici işlər naziri müstəvisindədir. Bu da praktiki sənədlər üzərində fikir mübadiləsidir. Həmçinin Paşinyan təklif edir ki, yekun sülh müqaviləsindən əvvəl çərçivə sazişi imzalansın və mübahisəli detallar sonraya saxlanılsın. Əlbəttə, bu, rəsmi Bakı üçün problemlidir. Çünki çərçivə sazişində əsas prinsiplər təsbit olunacaq, amma icrası həyata keçməyəcək. Məsələn, İrəvan sözdə "ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınmasından" danışsa da, Qarabağı Azərbaycanın tərkibində görmək istəmir. Faktiki olaraq, Azərbaycanın ərazi bütövlüyünü tanımadıqlarını bəyan edirlər. Yaxud deyilir ki, bölgədə kommunikasiyalar açılsın, ancaq İrəvan Zəngəzur məsələsində "yox" deyir. Ermənistan rəhbərliyi "çərçivə sazişi" dedikdə bəyannamə formasında bir sənədi nəzərdə tutur. Böyük ehtimal Filip Rikerin optimizmi bu məqamla bağlıdır. Lakin bu məsələnin həll edəcəyi heç nə yoxdur".

**T.Zülfüqarov vurğulayıb ki, hansısa prinsiplərin formal təsbit olunması bizim üçün o qədər də maraqlı deyil:** "Rəsmi Bakı konkret həllə doğru addımlar, qərarlar istəyir. Biz müəyyən olunmuş prinsiplərin icrasını tələb edirik. Ermənistan sənəddə yer alan əsas prinsipləri dəstəklədiyini desə də, gələn ilin dövlət büdcəsində Qarabağ separatçılarına maliyyə ayrılmasına qərar verirlər. Çox güman ki, Brüssel görüşü öncəsi Paşinyanın "Makron tələbi" ilə çıxış etməsi də Fransa ilə razılaşdırılmışdı. Məqsəd rəsmi Bakı ilə danışıqlar prosesini dalana dirəmək, hər hansı irəliləyiş, razılaşma olmasına imkan verməməkdir. Hiss olunur ki, Makron Avropa İttifaqının bu prosesdə müsbət rol oynamasını istəmir və buna mane olur. Fransa rəhbərliyinin əsas məqsədi odur ki, Avropa İttifaqı Azərbaycan əleyhinə sanksiya qəbul etsin, təzyiq göstərsin. Burada Aİ daxilindəki proseslər, qarşıdurma da önəmlidir. Azərbaycan qaz imkanları ilə Cənubi Avropa ölkələrinin xilaskarına çevrilməkdədir. İtaliya və Balkan ölkələri Azərbaycanla əməkdaşlığa müsbət yanaşırlar. Bu da Fransanı narazı salır və hətta İtaliya ilə əlaqələrə də mənfi təsir göstərir. Fransa özü böhranlı vəziyyətdədir və bir çox yerə əl atsa da, enerji ehtiyatlarını təmin etməkdə çətinlik çəkir. O baxımdan, sözün açığı, Brüssel formatı ilə bağlı gözləntilərim pozitiv deyil".

**İsmayıl Qocayev**

# "Naxçıvanın idarəçiliyi ilə bağlı islahatlara ehtiyac var"

Pənah Hüseyn: "Modellərdən biri bölgəyə Prezidentin səlahiyyətli nümayəndəsinin təyin olunmasıdır"



**"Naxçıvan Muxtar Respublikasının tamamilə ləğv edilməsi barədə heç kəs dəqiq məlumat bilmir. Hər halda Naxçıvanın muxtariyyəti və idarəçiliyi ilə bağlı ciddi struktur islahatlarına ehtiyac var".**

Bunu "Şərq"ə açıqlamasında sabiq baş nazir, Xalq Partiyasının sədri Pənah Hüseyn deyib.

O bildirib ki, Naxçıvanda Azərbaycan Respublikasının Konstitusiyası ilə uyğun olmayan müddəa və prinsiplər aradan qaldırılmalıdır: "Bura Gömrük Komitəsi, müdafiə, təhlükəsizlik, icra hakimiyyəti orqanlarının funksiyalarını yerinə yetirmələrinə dair məsələlər daxildir. Azərbaycan vətəndaşlarının bərabərlik hüququ nüansı da var. Praktikada onu pozan məsələlər haqda qanunvericilikdə dəyişikliklər edilməlidir. Naxçıvanda həm icra hakimiyyəti, həm qanunverici hakimiyyət bir vəzifəli şəxsin - Ali Məclis sədrinin əlində cəmləşib. Hakimiyyət bölgüsü prinsiplərinə ziddir. Modellərdən biri Naxçıvana Prezidentin səlahiyyətli nümayəndəsinin təyin olunması və bir sıra mərkəzi icra hakimiyyəti orqanları ilə əlaqələrin həmin şəxsin əlində cəmləşməsi ola bilər. Yerli özünüidarə prinsipi əsasında qurulması daha məqsədəuyğundur".

*Qeyd edək ki, noyabrın 28-də Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi ləğv edilib. Habelə Naxçıvan Baş Gömrük İdarəsi yaradılıb. Həmin idarə isə Dövlət Gömrük Komitəsinin strukturuna daxil edilib.*

**Aygün Tahir**

# Tehran rejimi bölgədə türk gücündən əndişələnir

İranın Ermənistanla əməkdaşlığı inkişaf etdirməsi məhz Azərbaycan-Türkiyə tandeminə qarşı formalaşıb



**Azərbaycan müstəqilliyini bərpa edəndən sonra İranla münasibətlərdə gərgin dövrlər çox yaşanıb. Lakin yaxın qonşuluq və iqtisadi-ticari əlaqələrin qarşılıqlı faydalı xarakter daşıması gərginliklərin dərinləşməsinə imkan verməyib. Ancaq 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi İran tərəfindən narahatlıqla qarşılandı.**

Yaxın qonşumuz və müsəlman "təəssübkeşi" kimi çıxış edən İran öz narahatlığını çox kəskin şəkildə bürüzə verdi. Azərbaycan Prezidenti işğaldan azad olunan ərazilərə səfəri zamanı Xudafərin körpüsünü dostluq körpüsü, İran-Azərbaycan sərhədini isə dostluq və qardaşlıq sərhədi adlandıraraq yaxın qonşumuza xoş mesajlar vermişdi. Bununla yanaşı bir sıra İran şirkətlərinə də Qarabağın bərpasında iştirak etmək imkanı yaradıldı. Rəsmi Bakı 30 ilə yaxın bir dövrdə Azərbaycanın tarixi torpaqlarının işğalına İranın susqunluğuna, Şuşada və İrəvanda azərbaycanlılara məxsus məscidlərin təmir edilərək fars məscidləri kimi qələmə verilməsinə, 44 günlük Vətən müharibəsi dövründə rəsmi Tehranın Ermənistana silah-sursat ötürməsinə baxmayaraq, qonşuluq münasibətlərini davam etdirmək niyyətini dəfələrlə bəyan etmişdi. Lakin İran Azərbaycana qarşı heç bir əsası olmayan qondarma iddialar irəli sürməyə başladı. Sözdə islam dəyərlərinə üstünlük verən İran, nədənsə, ermənilərin 67 məsciddən 65-ni dağıtmalarına göz yumdu. Amma Azərbaycanın İsraillə əlaqələrini böyük hay-küylə qarşıladı. Əlbəttə, Ermənistan heç vaxt müstəqil siyasət yürütməyib və həmişə özünə himayədar axtarışında olub. Azərbaycana məğlub olduqdan sonra Ermənistan rəsmiləri İrana üz tutaraq tarixi dostluqdan danışmağa başlayıblar. Rəsmi Tehran bəyan edir ki, regionda dövlətlərin sərhədlərinin dəyişməsi qəbuledilməzdir və bu, İranın "qırmızı cizgisi"dir. Əgər sərhədlərin dəyişməsi Tehran üçün qəbuledilməzdirsə, 30 il ərzində Ermənistan sərhədləri dəyişərək Azərbaycan ərazilərini işğal etdiyi vaxt niyə səsini çıxarmırdı?! Deməli, Ermənistan müsəlmanların yaşadığı yeri işğal edib sərhədi dəyişə bilər və bu, İran üçün qəbuledilməzdir. Lakin Azərbaycan öz ərazilərini işğaldan azad edəndə İran üçün qəbuledilməzdir. Ermənistanın Qafan şəhəri çox balaca bir yaşayış məntəqəsidir və bu şəhərdə tez-tələsik konsulluq açmaq İranın nəyinə lazım idi? Din qardaşlarına tarix boyu olmazın müsibətlər yaşadan Ermənistanın kiçik bir şəhərində diplomatik zərurət olmadığı halda konsulluq açan İran Azərbaycanın İsrail kimi müstəqil bir dövlətdə səfirlik açmaq qərarına hansı üzlə etiraz edir? Qarabağın işğalının sonrakı illərdə tarixi ərazilərimizin talan olunmasında İranın Ermənistana verdiyi dəstəyi Azərbaycan xalqı unutmayıb. "Qarabağ və Şərqi Zəngəzurda tarixi, dini və mədəni abidələrimizin erməni vandalları tərəfindən dağıdılmasına, məscidlərimizin təhqir edilməsinə İranın heç bir reaksiya verməməsini də yaxşı xatırlayırıq. İran, eyni zamanda, xalqımızın ermənilər tərəfindən qanlı soyqırımı cinayətlərinə məruz qalmasına da göz yumub. Təəssüflər olsun ki, İran bu gün də terrorizmə, işğalçılığa, revanşist meyillərə dəstək verir, Ermənistana himayədarlıq edir. İran Ermənistana dəstək verməkdən çəkinməli, Azərbaycanla münasibətlərin normallaşmasına nail olmalı, ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşmalıdır. Yalnız bu halda bölgədə sülhdən, təhlükəsizlikdən və dostluqdan danışmaq olar.

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, İranın Ermənistanla siyasi-hərbi və iqtisadi sahədə əməkdaşlığı gücləndirməsi Azərbaycan-Türkiyə tandeminə qarşı formalaşır. Analitikə görə, 44 günlük müharibədən sonra İran tərəfi Azərbaycan və Türkiyənin bölgədə sülhə, təhlükəsizliyə xidmət edən addımlarını, sabitlik məqsədi ilə irəli sürdükləri əməkdaşlıq platformalarını özü üçün təhlükə gördü:** "Tehran rejimi Türkiyənin Cənubi Qafqazda geosiyasi mövqeyinin artmasından narahatdır. Halbuki Cənubi Qafqazda, xüsusən Ermənistanda İran heç vaxt öz mövqeyini möhkəmləndirə bilməz. ABŞ və Avropa dərhal Ermənistanı cəzalandırar. Əslində İranla sıx təmaslar quran İrəvan hökuməti Vaşinqtonu qəzəbləndirir və etimadını itirir. Rusiya da İranın Ermənistanda güclənməsində maraqlı deyil. İranın "ermənilərə sevgi və rəğbət siyasəti" regionda heç də güc balansını Ermənistanın xeyrinə dəyişməyəcək. Bir müddət sonra Tehranın Ermənistan siyasəti də fiaskoya uğrayacaq. Sadəcə, mövcud durum həm Ermənistanın pozuculuq siyasətinə, həm də İranın düşmənçilik siyasətinə sərf edir. Təbii ki, İranı ciddi narahat edən amillərdən biri də Güney Azərbaycan faktorudur. O məqsədlə İran Ermənistanı yeni bir müharibəyə hazırlamaq məqsədi də güdür. Ancaq molla rejimi anlamır ki, bu siyasət Azərbaycan və Türkiyə ilə gərginlik yaratmaqdan başqa güneyli soydaşlarımızı da ayağa qaldırır".

**İsmayıl Qocayev**

# Böyük narazılıq yarandı

Anti-Türkiyə filmi Bakıda nümayiş etdirilməyəcək






**Azər Həsrət:** "Azərbaycan dövlətinin icazəsi ilə fəaliyyət göstərən səfirliklər, diplomatik nümayəndəlik və beynəlxalq təşkilatlar Azərbaycan dövləti qanunlarına tabe olmağa borcludur"

**Anti-Türkiyə mövzusunda lentə alınmış "Odda - İki bacı" ("Sisters apart") filminin yayımına cəhd edilməsi ölkəmizdə narazılığa səbəb olub.**

**Bakı kinoteatrları Türkiyəyə qarşı çəkilmiş filmin nümayişindən imtina edib. Lakin buna baxmayaraq Almaniyanın Bakıdakı səfirliyi və Aİ-nin Azərbaycandakı nümayəndəliyi filmi gələn həftə "Landmark"da nümayiş etdirmək niyyətindədir. Bununla bağlı səfirlik sosial şəbəkədə elan yayıb. Elanda bildirilir:**

"Almaniyanın Bakıdakı səfirliyi Aİ-nin Azərbaycandakı nümayəndəliyi ilə birlikdə sizi film nümayişinə dəvət edir. "Odda - İki Bacı". Təəssüf ki, bundan qabaq kinoteatrın filmi qısa müddətdə təxirə salması səbəbindən Aİ Film Festivalında göstərilə bilmədi. Nümayiş 5 dekabr 2022-ci il bazar ertəsi saat 19:00-da baş tutacaq. "Landmark" kinoteatr zalında ("CineClub", 1-ci mərtəbə), Ünvan: Nizami küç. 90A. Film orijinal alman versiyasında ingilis subtitrləri ilə nümayiş etdiriləcək. Giriş sərbəstdir! Sinopsis: Rojda əsli kürddür və alman ordusunda əsgər kimi xidmət edir. Anası İraqdan qaçır və bacısı orada itkin düşəndə, o, bacısını axtarmaq üçün təyinatını köhnə vətəninə saldırır. İraqda o, yoldaşları ilə birgə kürd peşmərgə döyüşçülərinə təlim keçir. Birdən-birə isə o özünü döyüşün ortasında tapır və qərar verməli olur".

Qeyd edək ki, filmin rejissoru yunan əsilli Dafne Karizanidir. Filmdə Almaniya bundesverinin hərbçisi olan Rojda Xani İraqda kürd hərbçilərə İŞİD-ə qarşı döyüşmək üçün təlim keçir. Amma kimsə bilmir ki, o, əslində itkin bacısı Bərivanı axtarır. Həmçinin filmin süjet xəttində Türkiyə hərbçiləri qəddar, qaniçən, məkrli "potensial düşmən" kimi göstərilir. Filmin pandemiya səbəbindən baş tutmayan "Berlin Kürd Film Festivalı"nda açıq nümayişi baş tutmayıb. 2020-ci ilin oktyabrında festival filmləri onlayn nümayiş etdirilib.

Bakı kinoteatrları haqlı olaraq belə bir filmin nümayişindən imtina edib. Azərbaycanla qardaşlıq münasibətlərində olan ölkəyə qarşı hazırlanmış bir filmin Bakıda, hansı məkanda olursa-olsun nümayişi yolverilməz hesab edilir.

**Məsələ ilə bağlı "Şərq"ə danışan ictimai xadim, politoloq Azər Həsrət qeyd etdi ki, Azərbaycan Respublikası ərazisində, Azərbaycan dövlətinin icazəsi ilə fəaliyyət göstərən səfirliklər, diplomatik nümayəndəlik və beynəlxalq təşkilatlar Azərbaycan dövləti qanunlarına tabe olmağa borcludur.** Əlbəttə, beynəlxalq öhdəliklər, beynəlxalq qanunlar öz yerində, lakin Azərbaycan xalqı üçün, yaşadığımız region üçün həssas sayılan məsələlərdə diqqətsiz yanaşacaq qədər ədəbsizlik etməməlidirlər:

- Əgər Azərbaycan kinoteatrları mövzunun həssaslığını haqlı olaraq nəzərə alıb filmin nümayişindən imtina edirlərsə, buna anlayışla yanaşmalı və sərhədləri daxilində olduqları dövlətin mövqeyinə hörmət etməlidirlər. İstər Almaniya səfirliyinin, istərsə də Aİ-nin Azərbaycandakı nümayəndəliyi cəmiyyətin narazılıqla qarşıladığı məsələdə israrçı davranaraq ədəbsizlik etməməlidir. Hesab edirəm ki, Azərbaycan tərəfi diplomatik kanallar vasitəsilə xəbərdarlıq etməlidir ki, bu ədəbsizliyə dözən deyil. Eləcə də "Landmark" iş mərkəzi və rəhbərliyi də Azərbaycan ərazisində yerləşdiyini və fəaliyyət göstərdiyini unutmayaraq, Azərbaycan dövlətinə və xalqına qarşı ədəbsizliyə yol verməməlidir. Bu gedişlə, günün birində bu və bu kimi mərkəzlər erməni təbliğatı da apara bilər. Ona görə də səfirlik və nümayəndəliklə yanaşı həmin iş mərkəzinə də xəbərdarlıq edilməlidir ki, bu cür qeyri-etik davranışlar qəbuledilməzdir. Və filmin nümayişi də dövlət səviyyəsində əngəllənməlidir.

*Qeyd edək ki, Mədəniyyət Nazirliyi də sözügedən filmin Azərbaycanda nümayişi ilə bağlı məlumat yayıb. Nazirlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, mövcud qanunvericiliyə əsasən, ölkə ərazisində kütləvi nümayiş üçün nəzərdə tutulan yerli və xarici filmlər Mədəniyyət Nazirliyi tərəfindən Dövlət Reyestrində qeydiyyata alınaraq Yayım vəsiqəsi ilə təmin edildikdən sonra kino nümayişi müəssisələrində tamaşaçılara təqdim olunur:* "Odda - İki bacı" filmi ilə bağlı bildiririk ki, sözügedən filmə nazirlik tərəfindən yayım vəsiqəsi verilməyib və istər nazirliyin tabeliyində fəaliyyət göstərən "Nizami" Kino Mərkəzində, istərsə də ölkədəki özəl kinoteatrlarda həmin filmin nümayişi nəzərdə tutulmayıb. Filmin qeyri-kino profilli hansısa məkanda nümayişinə gəldikdə isə bildiririk ki, bu kimi məsələlərin həlli Mədəniyyət Nazirliyinin səlahiyyətlərinə daxil deyil. Bununla belə, nazirlik sözügedən filmin qeyri-kino profilli müəssisədə nümayişini məqbul hesab etmədiyini bildirir".

**Bakıda Türkiyə əleyhinə filmə qarşı etiraz aksiyası keçirilib**

Almaniyanın Azərbaycandakı səfirliyi və Avropa İttifaqının nümayəndəliyinin filmin nümayişi ilə bağlı təşəbbüsü kəskin etirazla qarşılandığından geri addım atılıb.

Almaniya səfirliyindən bildirilib ki, səhv anlaşılmama üçün filmi nümayiş etdirməmək qərarına gəliblər.

Bununla belə, dünən ictimaiyyət nümayəndələri filmin nümayiş edilərləcəyi elan olunmuş "Landmark"ın qarşısına toplaşaraq, Türkiyə əleyhinə hazırlanmış filmin nümayiş etdirilməsi təşəbbüsünə kəskin etirazlarını bildiriblər.

APA xəbər verir ki, aksiya iştirakçıları təşəbbüskarların niyyətini pisləyib, qardaş Türkiyəyə dəstək nümayiş etdirərək, "Türkiyə Azərbaycandır!", "Yaşasın Azərbaycan-Türkiyə!", "Almaniya səfirliyinə ar olsun!", "Rədd olsun PKK!", "Rədd olsun terroristlər!", "Terrora stop!" və digər şüarlar səsləndiriblər.

**Məlahət Rzayeva**

## Güneyin səsi

# Kitabı mətbəədə yandırılan Əli Tudə...



Seyid Cəfər Pişəvərinin dostunun, Təbriz filarmoniyasının direktorunun məzarı üzü Təbrizə boylanan Fəxri xiyabandır

**O qaldırsın deyə bükük belini**
**Başından keçmədi yetən yolunda.**
**Kimi ayağını, kimi əlini,**
**Mən başımı qoydum Vətən yolunda!**

Bu misralar Cənub həsrətli, mühacir Azərbaycan şairi Əli Tudənin qələmindəndir.

Əli Tudə yaratdığı bütün ədəbiyyat nümunələrində azadlıq və bütövlük duyğularını qələmə alaraq millətin istiqlalı uğrunda canı ilə, qanı ilə mücadilə aparıb.

Bu baxımdan Cənubi Azərbaycan ədəbiyyatından danışarkən onun çoxsaylı nümayəndələri arasında Əli Tudənin yerini və rolunu xüsusi vurğulamaq mütləqdir. Vətən məhəbbəti Əli Tudə yaradıcılığının əsas qayəsini - ana xəttini təşkil edir. Hansı kitabını açıb-vərəqləsən, görərsən ki, orada şimallı-cənublu Azərbaycanın dərd-sərindən, gündəlik qayğılarından, əsrarəngiz təbiətindən, zəhmətkeş insanlarından danışılır. Əli Tudənin müxtəlif illərdə qələmə aldığı "Xalq", "Azərbaycan olmasa", "İstiqlal şəhidləri", "Anacan, fərman ver", "Sağlıq", "Şükür deyirik", "Ölmək istəmirəm" və s. şeirləri məhz bu qəbildəndir. Mayasında xalqın taleyi, onun faciəli, məşəqqətli həyatı duran həmin əsərlər vətənpərvərlik duyğuları oyadaraq oxucuda gələcəyə inam yaradır. Oxucu anlayır ki, xalqın bütün ağrı-acıları müvəqqəti və ötəridir. Şairin yaradıcılığında ayrılıq, həsrət motivli şeirlər də əhəmiyyətli yer tutur.

Ə.Tudə Cənubi Azərbaycan demokratik ədəbiyyatının yaradıcılarından biri kimi tanınır və sevilir. İctimai-siyasi fəaliyyəti ilə bərabər, öz qələminin qüdrətindən inqilabın nailiyyətlərinin qorunub saxlanılması üçün bacardıqca istifadə edib. Yaradıcılığını, yüksək əqidəsini, mütərəqqi fikirlərini mübarizə yollarında məşələ çevirən şair Əliyə Təbrizin şairlər məclisində müdriklər tərəfindən Tudə-Xalq təxəllüsü verilib.

**Tudə təxəllüsünü**
**Xalq özü verdi mənə.**
**Mərd, fədai olmağı**
**Məsləhət gördü mənə**
*- deyə şair yazırdı.*

Şairin ata-anası əslən Ərdəbilin Çanaxbulaq kəndindən idi. Ancaq valideynləri Azərbaycana köçdüklərindən, Əli Tudə 1924-cü il yanvarın 31-də Bakıda anadan olub. Neft mədənində fəhləlik edərək ailəni dolandıran atası Qulu, sonradan buruq ustası vəzifəsinədək yüksəlib. Ancaq faciə balaca Əlini hələ uşaq ikən haqlayıb. Bir yaşında olarkən atasını, 5 yaşında isə anasını itirib. Nənəsinin himayəsində böyüyüb. 150 saylı orta məktəbdə oxuduğu illərdə Bakı Pionerlər Sarayının nəzdində Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvünə çevrilən Əlinin, artıq 13 yaşında ilk şeirləri Heydər Rzazadə imzası ilə "Kommunist", "Yeni yol" qəzetlərində çap olunur, radioda səslənirdi.

Həyat isə xoş olmayan "sürprizlərini" ondan əsirgəmir. Valideynsiz, əzab-əziyyətlə böyüyən Əlinin taleyinə yenidən sürgün həyatı yazılır. 1938-ci ildə - 7-ci sinifdə oxuyarkən o, Cənubi Azərbaycan əsilli olduğundan nənəsi ilə birlikdə İrana sürgün edilib. Təhsili yarımçıq qalan yeniyetmə, İranda təsərrüfat işləri və fəhləliklə məşğul olaraq ağır həyat tərzi keçirib. Lakin şəxsi mütaliəsi, ədəbiyyata güclü meyli onu yazıb-yaratmaq həvəsindən çəkindirə bilmir.

1940-cı illərdə Cənubi Azərbaycanda başlanan Milli azadlıq hərəkatı Əlinin həyatında yeni bir səhifə açıb. O, azadlıq hərəkatına qoşulub. Gənc şair silahı və qələmi ilə mübarizə aparır, milli ruhlu şeirləri ilə xalqı istiqlala çağırıb. 1944-cü ildə "Vətən yolunda" qəzetində Əli Tudə imzası ilə şeirləri çap olunub. 1944-1946-cı illərdə Ərdəbildə çıxan "Ziddi-faşist", "Cövdət" qəzetlərində, ədəbi almanaxlarda, Təbrizdə çıxan"Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şəfəq", "Azərbaycan" məcmuələrində, "Şairlər məclisi" almanaxlarında şeirləri müntəzəm işıq üzü görüb. O, 1944-cü ildə "Hizbitudeyi İran" partiyasının üzvü olur. Əli Tudə bir ildən sonra Təbrizdə yaranan Azərbaycan Demokrat Firqəsinin sıralarına qoşulub. İran Xalq Partiyası Ərdəbil vilayət komitəsində təbliğatçı (1944-1945), Milli Hökumət yarandıqdan sonra Təbrizdə Maarif Nazirliyində tədris şöbəsinin müdiri (1945-1946) işləyib. "Ana dili" kitabının tərtibi və çap olunmasında xüsusi rol oynayıb. İran tarixində ilk dəfə olaraq Təbrizdə Milli Filarmoniya yaradılır və Əli Tudə onun ilk və son müdiri olub. O, mahal-mahal, kəndbəkənd gəzərək istedadları bu böyük mədəniyyət ocağına cəlb edib. "Öz gözlərimlə" kitabında Əli Tudə yazıb: "Bu, təkcə Təbrizdə deyil, bütün İranda açılan ilk filarmoniya idi. Salondakılar intizarla səhnəyə baxır, əllərindəki konsert proqramını dönə-dönə oxuyurdular. Ancaq proqramda yazılmamış bir çıxış da vardı. Bu da konsert başlamazdan əvvəl Milli Hökumətin lideri Seyid Cəfər Pişəvərinin edəcəyi nitq idi. Bunu yalnız filarmoniyanın müdiriyyəti bilirdi".

Milli ruhda yazdığı şeirləri ilə xalqı mübarizəyə səsləyən şair növbəti dəfə taleyin sərt sillesini yeyib. Min bir əzabla, qanlar, qurbanlar bahasına qurulan Milli Hökumət süqut edən zaman Ə.Tudənin çapa hazırlanan üsyankar ruhlu şeirlər kitabı mətbəədə yandırılıb. İran şahı onun tutulduqdan sonra məhkəməsiz qətlə yetirilməsi barədə fərman verib. Şair mübarizəni davam etdirmək və geriyə qayıtmaq məqsədilə öz məsləkdaşları ilə bir daha Bakıya mühacirət etmək məcburiyyətində qalıblar. 1946-cı il dekabrın 12-də sərhəddə yazdığı "Mən nə gətirdim" şeiri Cənubi Azərbaycan mühacir ədəbiyyatının ilk nümunəsi kimi məşhurlaşıb. Şeir o taydan gələn azərbaycanlıların manifestinə çevrilib.

Bütöv Azərbaycan həsrəti ilə döyünən ürəyi daima xiffət çəkən şair ayrılıq motivli şeirləri ilə həmvətənlərinin sevimlisinə çevrilib. O taylı-bu taylı böyük Azərbaycan poeziyasının parlaq simalarından birinə çevrilib. Əli Tudənin "Vətən həsrəti", "Dözüm", "Şəhid arzular", "Ayrılıq", "Ay Araz", "Təbriz yadıma düşdü", "Savalanın quzey qarı", "Etiraz", "Hanı", "Səfər arzusu" və s. bu kimi şeirləri də özünəməxsusluğu ilə fərqlənir. İkiyə bölünmüş Vətənin birlik ideyaları, bilavasitə bununla bağlı olan ayrılıq hissləri həmin poetik parçaların məğzini təşkil edir. "Vətən həsrəti" şeirində oxuyuruq:

**Həsrət çəkməyən bilməz**
**Həsrət nədir dünyada.**

Şairin "Mən səni görsəydim" şeiri Təbrizə ünvanlanıb. Gülüstan bağının, Şişəgər meydanının, Əmirbazarının, Kəcil qapısının gözlərinin önündən çəkilmədiyi doğma şəhərindən uzaq düşən vətənpərvər söz ustadı gəncliyini keçirdiyi yerlərin xiffətini çəkib:

**- Təbriz! - söyləməkdən dilim doymadı,**
**Uzatdım, çatmadı əlim qoynuna.**
**Sən məni çağırdın... Kimsə qoymadı**
**Ana nisgiliylə gəlim qoynuna.**

Ömrünün sonuna kimi mühacir həyatı yaşayan Əli Tudə 1996-cı il fevralın 26-da vəfat edib. Fəxri xiyabanda dəfn olunub.

Mərd, məğrur, heç kəsə baş əyməyən şair sağlığında heç bir fəxri ad almasa da, bütöv Azərbaycanın yadaşında azadlıq şairi, xalqının şairi kimi qalıb.

"Ona ömrünün axırına kimi Cənubi Azərbaycana, Təbrizə, Ərdəbilə, doğma kəndinə getməyə imkan vermədilər. O tərəf İran, bu tərəf sovet. İki imperiya bir şairdən qorxdu!" - deyə Əli Tudəni nisgillə xatırlayan Xalq şairi Nəriman Həsənzadə həmkarını Azərbaycan üçün yazıb-yaradan, xalqını sevən vətənpərvər bir şair kimi xatırlayır: "Biz Əli Tudəni vaxtsız itirdik. 36-dan çox kitabın müəllifi olan şairin ölməz əsərləri bu gün də, sabah da heç vaxt öz aktuallığını itirməyəcək. O, təkcə qələmlə silaha sarılmayıb, həm də Cənubi Azərbaycanda Pişəvəri hərəkatına qoşularaq Milli Dirçəliş uğrunda mübarizə aparıb, səngərlərdə döyüşüb. Azərbaycan üçün yazıb-yaradan, xalqını sevən vətənpərvər bir şair idi. O, bir insan kimi dostluğa da sədaqətli idi. Onunla uzun müddət dostluq etmişdim. Onun ailəsi ilə bu gün də dostluq, qonşuluq əlaqələrimiz kəsilməyib. Oğlu Natiq, qızları Pərvanə, Rəna o gözəl ailənin, gözəl övladları kimi atalarının xatirəsini əziz tuturlar. Onun kitablarını təkrar çapa hazırlayırlar. Ölkə Prezidenti İlham Əliyevin belə ölməz şair və yazıçıların yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları xalqımız tərəfindən böyük sevgi ilə qarşılanır. Ölməz sənətkarımız Əli Tudənin xatirəsi mənim üçün əzizdir. Onun xatirəsi daim yad ediləcək".

**Ədəbiyyatşünas-alim Elman Quliyev şairi ideyaları uğrunda parlayan günəşə bənzədir:** "Əli Tudənin Vətən birliyi, azadlıq ideyaları, tarixi haqsızlığa qarşı kəskin etirazı, yüksək ideyalı yaradıcılığı, sözün həqiqi mənasında, öz sözlərilə desək, "böyük həqiqət gözgüsü"dür. Şairin poeziyası daha çox öz taleyinin bədii əksinə çevrildiyindən, bu sənətdə ayrılıq, həsrət, nisgil motivləri öz aydın təzahürünü tapır. Əli Tudənin çoxsahəli yaradıcılığında Vətənin tarixi keçmişi, bugünkü problemləri, onun gələcək həyatı ən yüksək fəlsəfi deyim tərzində ifadə olunur. Buna görə də sanki o, Təbrizdə doğulub yaşayan şair öz ideallarının yolunda əriyən şama bənzəyir. Lakin bu vəziyyətdə şair öz ideallarına işıq bəxş etdiyindən şamdan çox günəşi xatırladır. O tayda da, bu tayda da yaşadığı illərdə şair Vətənin azadlığı və bütövlüyü uğrunda aparılan ideyalara sadiq qalmış, qəlbi həmişə belə müqəddəs amallarla döyünmüş və ömrü boyu öz yaradıcılığında nə isə axtaran şair, istedadını məhz elə şeirlərində tapmışdı. Lakin o, Təbrizdə olduğu kimi, Bakıda da sakit dayana bilmədi. Xalqını, millətini həmişəlik azad görmək arzusu onu rahat buraxmadı. Son nəfəsinədək Vətən həsrəti ilə dolu ürəyi xalqın müstəqilliyi və azadlığı üçün döyündü. Bu yolda yorulmadan mübarizə apardı. Üzdən həmişə şən, qayğısız, gülərüz görünsə də, ömrünün axırına qədər içində "Azərbaycan" adlı bir həsrət və nisgil gəzdirdi".

**Şəymən**



---

# Vaşinqton Tehranı hədəf lövhəsinə qoyur

## Yaxın gələcəkdə ABŞ Azərbaycanla hərbi əməkdaşlıq formatını yeniləyəcək

**"ABŞ-nin xarici siyasətində enerji mənbələrinə əl qoymaq və təhlükəsizlik ovqatını həmin enerji ilə yükləmək mühüm yer tutur. Bu mənada faydalı təbii resurslara malik olan Xəzər dənizi də Vaşinqtonun nəzərlərində ayrıca bir dəyər qazanır".**



*Bu sözləri "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağı hesab olunur. Açılacaq Zəngəzur dəhlizi bəşəri ticarət marşrutlarının şaxələnməsi prizmasından çəki qazanacaq:* "ABŞ Çin və Rusiya ilə rəqabət kontekstində onları ofsaydda saxlayıb, yeni dəhlizdə böyük üstünlüklə nəzarət sahibi olmağı ağlından keçirir. ABŞ-nin təhlükəsizliyə aid strateji qavrayışları İranın eyni məzmundakı şüuru ilə tərs-mütənasib olduğundan Vaşinqton Tehranı hədəf lövhəsinə qoyur. Ona qarşı ox formalaşmasını öz əlindən gələni ardına qoymur. İsrailin Cənubi Qafqaz regionunda zühuru onun müttəfiqi olan ABŞ-nin də üzərinə əlavə məsuliyyət qoyur. Ağ Ev sadaladığımız bəndlər üzrə konfiqurasiyanı Rusiya və İrana qarşı cəbhə kimi cəm halına gətirib hərəkətə keçir. Hərəkət trayektoriyasında manelərin olmaması üçün ABŞ Azərbaycanla hərbi sahədə əməkdaşlığı keyfiyyət baxımından mənalandırmaq çağırışı ilə üzləşir. Bakı-Vaşinqton xəttindəki "barıtlı mübadilə" elə Azərbaycan üçün də xeyli əlverişli görünür. Əlverişli məqamlara çatmaq üçün isə bir sıra dəqiqləşdirmələr aparılmalıdır. Ona görə də Azərbaycan müdafiə nazirinin birinci müavini, Ordunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ABŞ-yə səfər edib. O, supergücün Birləşmiş Qərargahlar Rəisləri Komitəsi rəisinin birinci müavini admiral Kristofer Qreydi ilə təhlükəsizliklə bağlı müzakirələr aparıb. Kərim Vəliyevin postu hüquqi baxımdan hərbi məzmunlu olsa da, faktiki olaraq həm də siyasi vəzifə çalarlarına da sahibdir. K.Vəliyev ABŞ ilə Rusiyanın rəqabətinin Azərbaycana təhlükəsizlik təhdidi yaratmaması üçün hərbi müvazinəti saxlamaq təlimatını icra edən şəxsdir".

**Ekspertə görə, onun həm Rusiya, həm də ABŞ ilə isti əlaqələri Azərbaycan üçün əhəmiyyətlidir: "Kərim Vəliyev indi dövlətdən aldığı bir sıra təlimatları gündəliyinə qoyur. General-polkovnikin səfəri fonunda iki məqam da gözə çarpır:**

- İsrail Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi Aviv Kohavi noyabrın 20-də ABŞ-yə beşgünlük səfərə getdi. Mərkəzi Kəşfiyyat İdarəsində, Pentaqonda İranı müzakirələrin episentrinə gətirdi. Bunun ardınca, ABŞ və İsrailin aviasiya qüvvələri Aralıq dənizi üzərində İranın nüvə təsisatlarını şərti hədəf kimi qoyaraq onları "vurmaq" üçün təlim keçdilər. Kərim Vəliyevin Kohavinin ABŞ səfəri və "İranın bombardman edilməsi" fonunda ABŞ-yə gedişi bir neçə proqnoz üçün ipuclarıdır. ABŞ Azərbaycanla hərbi əməkdaşlıq formatını yeniləyəcək və yaxın gələcəkdə bunun praktiki təzahürləri görünəcək. İsrail bu əməkdaşlığın o nöqtəsində dayanacaq ki, əsasən, İrana qarşı hərbi tədbirlər zamanı öz istədiyini bu region üzərindən gerçəkləşdirə bilsin. Azərbaycan-ABŞ-İsrail gizli formatının gizli təşəbbüskarları sırasında Böyük Britaniya və Türkiyə yer alır. Vəliyev Bakıya qayıtdıqdan sonra Ankara-Bakı təmaslarında hərbi gündəlik ABŞ səfərinin yekunlarına uyğun olaraq müzakirəyə çıxarılacaq".

**İsmayıl**

---

# Qarabağda toponimlər həssas məsələdir

## Rus sülhməramlılarının etinasızlığı Azərbaycan ictimaiyyətini hiddətləndirib



**Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarından başlıca gözlənti 10 Noyabr bəyanatının müddəalarının həyata keçirilməsinə dəstək vermələri idi. Ancaq əvvəllər olduğu kimi Rusiya Azərbaycan xalqını yenə də yanıltmadı. Məramı "sülh" olmayan rus hərbçiləri daha çox Qarabağda sülhü əngəlləyən addımlara yol verməklə diqqət çəkdilər.**

Əsas məqam odur ki, üçtərəfli bəyanatın 4-cü bəndinə əsasən, sülhməramlı kontingent Azərbaycanın Qarabağ bölgəsinə yerləşdirilməklə paralel olaraq qanunsuz erməni silahlı qüvvələrinin çıxarılması təmin edilməli idi. Lakin iki il keçməsinə baxmayaraq, ortada hələ də konkret nəticə yoxdur. Rusiya sülhməramlıları nə erməni silahlı dəstələrini Azərbaycan ərazilərindən çıxarmağa çalışır, nə də öz fəaliyyətlərində tərəfsiz mövqe nümayiş etdirir. Əksinə, bu silahlı dəstələrə Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan dəhliz və yollarla silah-sursat daşınır. Azərbaycan ərazilərinin çirkləndirilməsində istifadə edilən minalar çatdırılır. Cəmi bir həftə əvvəl Laçın rayonundakı Sarıbaba yüksəkliyinin şimal hissəsində qanunsuz erməni silahlı dəstələri tərəfindən basdırılan minaların aşkarlanması faktı da bunu sübut edir. Rusiya "sülhməramlı"larının növbəti səhvlərindən biri də Azərbaycanın yaşayış məntəqələrinin qondarma erməni adları ilə təqdim edilməsidir. Ağdərə və Xocavənd rayonlarının Rusiya Müdafiə Nazirliyi tərəfindən "Mardakert" və "Martuni" kimi qeyd olunması ermənilərin Azərbaycan xalqının tarixi toponimlərini dəyişdirmək cəhdlərinə dəstək vermədir. Bununla yanaşı iki ölkə arasında müttəfiqlik münasibətlərinə kölgə salmaqdır. Bu həm də Rusiyanın rəsmi mövqeyi ilə ziddiyyət təşkil edir. Rusiya sülhməramlı komandanlığı toponim məsələsinin Azərbaycan üçün həssas olduğunu çox yaxşı anlayır. Azərbaycan xalqı ermənilərin işğal altındakı tarixi yurd-yuvamızı eybəcər adlarla çağırmasını yaxşı xatırlayır. Bu qondarma adlar həmin dövrdə işğalın alçaldıcılığını artırmaqdan savayı bir məqsədə xidmət etmirdi. Rusiya Müdafiə Nazirliyinin ərazilərimizi bu cür qondarma adlarla göstərməsi sülhə xidmət etmir. Ona görə də sülhməramlı komandanlığı məsələ ilə bağlı anlaşılmaz mövqeyini düzəltməlidir. Azərbaycan-Rusiya münasibətlərinin normal məcrada inkişafı fonunda sülhməramlı kontingentin belə etinasızlığı Azərbaycan ictimaiyyətini hiddətləndirir. Rusiyanın mövqeyini ölkənin siyasi rəhbərliyi müəyyənləşdirir, ya sülhməramlıların komandanı Volkov?! Volkovun belə "cəsarətlənməsi" Vardanyanın gəlişindən sonra hiss olunmağa başlayıb. Amma Volkovu da sanki "cəsarətləndirib". Əminliklə söyləmək olar ki, həm Ermənistan rəhbərliyinin, həm də Qarabağdakı separatçı törtöküntülərinin hazırda yeganə məqsədi Qarabağdakı Rusiya sülhməramlılarının mandatını uzatmaqdır. Ermənistanın Baş naziri Paşinyan da son iki ildə sülhməramlı missiyaya uyğun gəlməyən fəaliyyətlə məşğul olan, Azərbaycan ictimaiyyətinin etimadını günü-gündən itirən Rusiya sülhməramlılarının mandatının qeyri-müəyyən müddətə uzadılmasını açıq şəkildə bəyan edir.

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, rus sülhməramlılarının belə bir addım atması qəbuledilməzdir. Azərbaycan bununla bağlı dəfələrlə Rusiya tərəfinə öz fikrini bildirib:** "Bu ərazilərin adları Azərbaycan dilində olmalıdır. Çünki bu torpaqlar beynəlxalq hüquqa əsasən də Azərbaycan əraziləridir. Rus sülhməramlıları bəlkə də bununla özlərini ermənilərə yaxın və onların yanlarında olduqlarını göstərmək istəyirlər. Amma bu, yanlış addımdır. Azərbaycanla Rusiya arasında müttəfiqlik haqqında sənəd var. Bu iki ölkə bir sıra sahələrdə uzunmüddətli əməkdaşlıq edirlər. Həmçinin Rusiyanın Azərbaycanda və Azərbaycanın da Rusiyada bir sıra müəssisələri fəaliyyət göstərir. Ona görə hesab edirəm ki, bu məsələdə rus sülhməramlıları diqqətli olmalı, ermənilərin yanlış siyasətinin qurbanına çevrilməməlidirlər. Bu, Azərbaycanla Rusiya arasında imzalanmış strateji müttəfiqlik sənədinə də ziddir. Azərbaycan Rusiya tərəfinə dəfələrlə xəbərdarlıq edib. Bizim gözləntilərimiz ondan ibarətdir ki, Rusiya bu məsələləri mütləq nəzərə almalıdır. Nəzərə almadığı təqdirdə, Azərbaycanın da buna öz münasibəti və reaksiyası olacaq".

**İsmayıl Qocayev**

# "Heydər Əliyevin hər cümləsinin arxasında dərin hikmət var"

## Məlahət İbrahimqızı: "Ümummilli Liderin ən çox sevdiyi şair Şəhriyardır"

**"2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.**

Tədbirlər Planına əsasən, "Heydər Əliyev təqaüdü" təsis ediləcək. Eyni zamanda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qızıl sikkələr hazırlanacaq. 2023-cü ilin yanvar-may aylarında "Heydər Əliyev - 100" yubiley medalı təsis olunacaq.

**Millət vəkili, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Məlahət İbrahimqızı "Şərq"ə deyib ki, Heydər Əliyev elə böyük şəxsiyyətdir ki, sadəcə, bir-iki günlük yubiley tədbirlərində, anım mərasimlərində onun misilsiz xidmətlərini, gördüyü əvəzsiz işləri sadalamaq, əziz xatirəsini yad etmək qeyri-mümkündür.** O baxımdan 2023-cü ilin bütövlüklə "Heydər Əliyev İli" elan olunması çox təqdirəlayiq addımdır. Deputatın sözlərinə görə, ölkə ictimaiyyəti Prezident cənab İlham Əliyevin bu barədə Sərəncamını böyük məmnunluqla qarşılayır. Azərbaycanda elə bir sahə yoxdur ki, Ümummilli Liderin həmin sahədə mühüm xidməti, yönləndirici rolu olmasın. 2000-ci il aprel ayında Bakıda Dədə Qorqudun 1300 illik yubileyi keçirilmişdi. Ulu Öndərin Dədə Qorqud haqqında çıxışına nəzər salanda düşünürsən ki, dünyanın ən böyük qorqudşünas alimi elə Heydər Əliyevdir. O cümlədən dahi şairlərimiz Nizami Gəncəvi, Məhəmmməd Füzuli,



***"Heydər Əliyev türk dünyasının birliyinə böyük töhfələr verib. Hazırda Türk Dövlətləri Təşkilatı adlanan birliyin illər öncə, 2000-ci ildə Bakıda keçirdiyi zirvədə Heydər Əliyev tarixi çıxış etmişdi"***

Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov və digərləri ilə bağlı çıxışlar da insanda eyni təəssüratı formalaşdırır. Oxuduqca, araşdırdıqca Heydər Əliyevin nə qədər dahi şəxsiyyət olduğunu görürsən. Hər bir məsələnin mahiyyətini, tarixini, elmi xüsusiyyətlərini çox gözəl bilirdi. Onun çıxışları elmi tezislər idi, hər cümləsi bir düşüncə idi. Ulu Öndər hər zaman xalqın dilində danışırdı. Bütün sahələrdə Ümummilli Liderin çox böyük zəhməti, əməyi var".

**M.İbrahimqızı bildirib ki, Tədbirlər Planı "Heydər Əliyev İli" ilə bağlı bir yol xəritəsidir:** "Heydər Əliyev türk dünyasının birliyinə böyük töhfələr verib. Hazırda Türk Dövlətləri Təşkilatı adlanan birliyin illər öncə, 2000-ci ildə Bakıda keçirdiyi zirvədə Heydər Əliyev tarixi çıxış etmişdi. Demişdi ki, türk dövlətləri, xalqları öz tarixləri boyu bir-biri ilə indiki qədər yaxın olmayıb. Ümummilli Lider çox aktual məsələyə toxunmuşdu. Həqiqətən, keçmiş tarixə nəzər salsaq, türk dövlətlərinin bir-biri ilə savaş halında olmasını görərik. Ona görə də türk xalqları pərən-pərən düşüblər. Ancaq bu gün türk dövlətləri və xalqları Türk Dövlətləri Təşkilatı çərçivəsində güclü birlik və həmrəylik nümayiş etdirirlər. Artıq Türkmənistan da Türk Dövlətləri Təşkilatının tam hüquqlu üzvü oldu. Şükürlər olsun ki, hazırda türk dünyası tarixinin ən şanlı mərhələsini yaşayırıq. Bu gün biz qardaşlığı, dayanışmanı görürük və qürur duyuruq. Heydər Əliyev həmin zirvə görüşündə xüsusi vurğulamışdı ki, "biz tarixdən dərs çıxartmalıyıq, tariximizdə olan səhvləri təkrarlamamalıyıq və türk dünyasını ildən-ilə gücləndirməliyik". Heydər Əliyevin "Azərbaycan" jurnalında bir müsahibəsini oxumuşdum. Ulu Öndərdən soruşurlar ki, "sizin ən çox sevdiyiniz şeir hansıdır?". Heydər Əliyev cavab olaraq Səməd Vurğunun "Azərbaycan" şeiri demişdi. Digər suallara cavab olaraq ən çox sevdiyi dramaturqun Hüseyn Cavid, ən çox sevdiyi şairin isə Məmmədhüseyn Şəhriyar olduğunu söyləmişdi. Heydər Əliyev Hüseyn Cavidi niyə sevirdi? Çünki H.Cavid türkçü və müsəlman şairlərdən idi. Ulu Öndərin "ən çox sevdiyim şair Şəhriyardır" sözləri də çox ciddi mesaj yükü daşıyır. Ümummilli Lider diqqətə çatdırır ki, Şəhriyar bizim şairimizdir, türkdür. Milyonlarla soydaşımız Güney Azərbaycandadır və biz onlara sahib çıxmalıyıq. Heydər Əliyevin hər cümləsinin arxasında dərin hikmət var".

**Parlament üzvü qeyd edib ki, Azərbaycan və Türkiyə rəhbərlikləri arasında yazılmamış qanunlar var. İki ölkədə də prezident seçkilərindən sonra liderlər bir-birinə qarşılıqlı səfərlər edir:** "Həmişə fikirləşirdim ki, rəsmi protokoldan kənar bu ənənə harada, nə vaxt, necə formalaşıb. Ötən il Azərbaycan-Türkiyə dostluğu barədə bir kitabı hazırlayanda Türkiyə lideri cənab Rəcəb Tayyib Ərdoğanın 2003-cü il yanvarın 7-də Azərbaycanda olması və Heydər Əliyevlə görüşü diqqətimi çəkdi. Ərdoğan Atatürkdən sonra ilk dəfə təkbaşına hakimiyyətə gələn liderdir. Heydər Əliyev çox uzaqgörən lider olduğuna görə Ərdoğanı Azərbaycana dostluq səfərinə dəvət etmişdi. Ərdoğan seçkidən sonra Avropa ölkələrinə səfərlər etdiyini bildirmişdi. Ulu Öndərimiz Türkiyə lideri Ərdoğanla görüşündə bir mesaj kimi vurğulamışdı ki, Türkiyədə rəhbər seçilən şəxslər ilk növbədə Azərbaycana, Azərbaycanda seçilən şəxslər də birinci səfərini Türkiyəyə etməlidir. 2003-cü ilin avqust ayında cənab İlham Əliyev baş nazir seçiləndə ilk səfərini Türkiyəyə edir. Görün, Heydər Əliyev nəyin təməlini qoyub? Ulu Öndərin hər çıxışını diqqətlə oxumaq lazımdır".

**İsmayıl Qocayev**



# İqtisadi sahədə fəaliyyət göstərən media nümayəndələri üçün təlimlər davam edir

**İqtisadiyyat Nazirliyi iqtisadi sahədə fəaliyyət göstərən media nümayəndələrinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Medianın İnkişafı Agentliyi ilə birgə təlimlərin keçirilməsini davam etdirir.**

Bu barədə "Şərq"ə MEDİA-dan məlumat verilib.

Qeyd olunub ki, növbəti belə təlim nazirliyin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) tərəfindən "Dördüncü Sənaye İnqilabı və Rəqəmsal İqtisadiyyat" mövzusunda keçirilib.

Təlimçilər - 4SİM-in Rəqəmsal iqtisadiyyat şöbəsinin rəisi Cavid Abdullayev və Layihələrin idarəolunması şöbəsinin əməkdaşları Kənan İbrahimov və Ruslan Zeynalzadə 4SİM-in fəaliyyəti, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat, rəqəmsal iqtisadiyyatda insan kapitalı barədə təqdimatla çıxış ediblər.

Tədbirdə mövzularla bağlı müzakirələr aparılıb, media nümayəndələrinin sualları cavablandırılıb.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub. Media nümayəndələrinə sertifikatları İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Tamerlan Tağıyev və Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli təqdim ediblər.



# Dönüş yaranır

## Türkiyə-Misir münasibətləri getdikcə istiləşir

**Türkiyə və Misir arasındakı münasibətlər dəyişkənliyini qoruyub saxlayır. Son zamanlar yayılan bəzi xəbərlər iki ölkə arasındakı əlaqələrin necə inkişaf edəcəyi haqqında müzakirələr yaradıb. Hətta Prezident Rəcəb Tayyib Ərdoğanın Qətərin paytaxtı Dohada keçirilən, Dünya Çempionatının açılışında Misir Prezidenti Abdulfattah Es-Sisiylə salamlaşıb, onun əlini sıxması yenidən sualların yaranmasına səbəb oldu.**

Xatırladaq ki, bu ölkələr arasında diplomatik münasibətlər 1925-ci ildə qurulmuşdu, əvvəlcə ölkələr müvəqqəti vəkil mübadiləsi etdilər və 1948-ci ildə isə ilk səfirlər təyin edildi.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Türkiyə qarşıdakı aylarda Misirə səfir təyin edə bilər", - deyib. Türkiyə-Misir əlaqələrinin normallaşması barədə fikirlərini öyrənmək üçün Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin dekanı, yaxın şərq üzrə siyasi analitik Vüqar Ziferoğluna müraciət etdik. O bildirdi ki, Türkiyə ilə Misir münasibətlərində son zamanlarda, əsasən də 2013-cü ildə Misirdə baş verən hərbi çevrilişdən sonra müəyyən gərginliklər yaşanıb: "Şərqi Aralıq dənizi böhranında isə bu gərginliklər ən pik həddə çatdı. Çünki Türkiyənin Liviya və Şərqi Aralıq dənizi ilə bağlı imzaladığı müqaviləyə alternativ olaraq formalaşan blokda Misir də təmsil olunurdu. Eyni zamanda da Misir faktiki olaraq Türkiyənin Şərqi Aralıqdakı maraqlarına və nüfuzuna təhdid yaradan Yunanıstanla müttəfiq münasibətlər qurmağa başladı".

V.Ziferoğlu iki dövlət arasındakı əlaqələrin bugünə kimi olan gedişatını da analiz etdi: "Diqqət etsək görərik ki, son 1 ilə yaxın müddət ərzində, bu münasibətlərdə müəyyən bir qarşılıqlı dialoq atmosferinə təkan verəcək addımlar atılır. Birmənalı şəkildə vurğulamaq lazımdır ki, Mövlud Çavuşoğlunun da verdiyi bu açıqlama əslində son 1 ildəki bu istiləşmə tendensiyasının təzahürüdür. Deməli, gözləmək olar ki, Türkiyə ilə Misir münasibətlərində müsbətə doğru dönüş yaransın".

**Gülay Məmmədova,**
**BDU-nun Jurnalistika fakültəsinin tələbəsi**

# Rusiya sülhməramlılarının məramsızlığı

## Azər Həsrət: "Hətta onlar öz açıqlamalarında və sənədlərində Azərbaycan torpaqlarını qədim Ermənistan ərazisi kimi yazmaqdan belə çəkinmirlər"

**"Rusiya sülhməramlılarının bizim torpaqlarda yerləşməsinə baxmayaraq, yer adları məsələsinə hörmətsizlik etməsi, Azərbaycan dövlətinin və xalqının narahatlığına səbəb olur".**

**Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Azər Həsrət Rusiya sülhməramlı kontingentinin rəsmi məlumatlarında Azərbaycanın yaşayış məntəqələrini uydurma erməni adları ilə təqdim etməsinə münasibət bildirərkən deyib.**

O qeyd edib ki, bu hadisə Rusiyanın güvənilməz dövlət olduğunu bir daha sübut edir: "Analoji davranışlar Kremlin belə missiyalarda iştirakının yanlış olduğunu sübut edir. Yəni bundan sonra Azərbaycan və digər dövlətlər rəsmi Moskvanın vasitəçiliyinə şübhə ilə yanaşacaq. Hələ 10 noyabr 2020-ci ildə üçtərəfli bəyanat imzalanarkən Azərbaycan dövləti münaqişənin dinc yolla həlli məsələsini ortaya qoydu. Digər tərəfdən Ermənistan da silahlı qüvvələrinin Qarabağdan çıxarılması öhdəliyini üzərinə götürdü. Lakin onlar bu ərazidən çıxmadılar. Bəyanatda həm də rus sülhməramlılarının erməni qoşunlarının Qarabağdan çıxmasına paralel şəkildə yerləşdirilməsi barəsində bənd yer alırdı. Lakin onların Qarabağda yerləşməsinə rəğmən erməni hərbi dəstələri Azərbaycan ərazisindən çıxarılmadı".



*Analitikin sözlərinə görə, Kreml üzərinə düşən öhdəlikləri yerinə yetirmir:* "Biz ötən iki il ərzində müşahidə etmişik ki, Rusiya sülhməramlıları tərəfsiz vasitəçi deyil, işğalçı Ermənistanın tərəfdarı kimi çıxış edir. Hətta onlar öz açıqlamalarında və sənədlərində Azərbaycan torpaqlarını qədim Ermənistan ərazisi kimi yazmaqdan belə çəkinmirlər. İndinin özündə də onlar Qarabağda yerləşən "Amaras" məbədini ziyarət xəbərlərində "bu məbəd orta əsr Ermənistanın "dəyərli" abidəsidir" cümləsini əlavə edirlər.

### "Kreml üzərinə düşən öhdəlikləri yerinə yetirmir"

Yəni faktiki olaraq rus sülhməramlıları Azərbaycan torpağını Ermənistan ərazisi kimi qələmə verir. Digər tərəfdən sülhməramlıların ad məsələsində bizə "diş göstərmələri" tərbiyəsizliyin son həddidir.

Onlar anlamalıdır ki, əgər Azərbaycan ərazisində yerləşirlərsə, bizim torpaqları ana dilimizdə adlandıracaqlar. Çünki sülhməramlıların mandatına, yer adlarını müəyyənləşdirmək kimi bir faktor daxil deyil. Onlar isə ermənilərlə birlikdə Azərbaycan torpaqlarına qondarma ad verməklə məşğuldur.

Ümumiyyətlə, biz bir daha şahid olduq ki, "şimal ayısı"na güvənmək olmaz və Azərbaycan dövləti Rusiya ilə münasibətlərə yenidən baxmalıdır".

**Nihat Müzəffər**



# Azərbaycan Ordusu döyüşə tam hazır vəziyyətdədir

## İrəvan sərhəddə baş verən atəşkəsin pozulma hallarının qarşısını almasa, rəsmi Bakı adekvat cavab verməli olacaq

**"Son günlər Azərbaycan-Ermənistan sərhədində və Qarabağda atəşkəsin mütəmadi pozulmasında başlıca günahkar seçkilərdə məğlub olan Robert Koçaryan və onun "Qarabağ klanı"dır". Bu sözləri Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib.**

Partiya təmsilçisi qeyd edib ki, heç kəsə sirr deyil ki, bu gün Ermənistan silahlı qüvvələri daxilində "Qarabağ klanı"na məxsus zabit və əsgərlər var: "Atəşkəsin pozulma halları "Qarabağ klanı"na sadiq hərbiçilərin ordu daxilində özfəaliyyəti ilə əlaqədardır. Nikol Paşinyan indiki halda hakimiyyətini möhkəmləndirmək və sülhə nail olmaq istəyirsə, "Qarabağ klanı"nın nümayəndələrinə qarşı sərt tədbirlər görməli, beləcə həm də Robert Koçaryanın gücünü sındırmalıdır. Rəsmi Bakı bir müddət öz səssizliyini qorusa da, gec-tez Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində atəşkəsi pozma hallarının qarşısını almaq üçün ciddi addımlar atmalı olacaq. 44 günlük müharibə bir daha onu göstərdi ki, Ermənistan Azərbaycanla müharibə ritorikasında danışa bilməz".

**S.Əsədli vurğulayıb ki, müharibə bitsə də, Azərbaycan Ordusu döyüşə tam hazır vəziyyətdədir:** "Rəsmi İrəvan sərhəddə baş verən atəşkəsin pozulma hallarının qarşısını almasa, rəsmi Bakı adekvat cavab verməli olacaq. O ki qaldı Ruben Vardanyana, onun Rusiyanın hakim elitası ilə sıx əlaqələrinin olduğu faktdır. Və versiya kimi onun Qarabağa gəlişinin Kremlin regionda nüfuz dairəsi üçün qura biləcəyi yeni mürəkkəb oyunun ilk carçısı ola biləcəyi idi. Amma Ruben Vardanyanın bu zaman hansı funksiyaları yerinə yetirəcəyi və bölgədəki hadisələrin gedişatına hansı təsiri göstərə bilməsi sual doğurur. Digər tərəfdən Ruben Vardanyanın mümkün kuratorlarının bu işdən hansı qazanc əldə edəcəkləri də dumanlıdır".

**İsmayıl**

# "Biz bu mükafata layiqik"

## Mirvari Qəhrəmanlı təşkilatının bütün üzvlərini, ekspertləri, tərəfdaşlarını təbrik edib

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının rəhbəri Mirvari Qəhrəmanlı 2022-ci il üçün "İnsan Hüquqları və Biznes sahəsində Mükafat"ının qalibi olub. "İnsan Hüquqları və Biznes sahəsində Mükafat" Fondunun təsis etdiyi bu mükafatın qalibi noyabrın 29-da Birləşmiş Millətlər Təşkilatının sahibkarlıq fəaliyyəti və insan hüquqları məsələləri üzrə illik Forumu çərçivəsində elan edilib.**




Mükafat "insan hüquqlarının sahibkarlıq fəaliyyətinin mənfi təsirindən qorunması sahəsində böyük uğurlara malik" hüquq müdafiəçilərinə təqdim edilir. Neftçilərin Hüquqlarının Müdafiəsi Təşkilatı 1996-cı ildə bir qrup neftçi tərəfindən təsis edilib və əsasən Azərbaycanda neft-qaz hasilatı və emalı ilə məşğul olan şirkətlərin insan hüquqlarına təsiri məsələləri ilə məşğul olur. Təşkilat neft-qaz sektorunda çalışanların hüquqlarını müdafiə edir və böyük neft-qaz layihələrinin ictimai monitorinqini aparır. Bundan başqa təşkilat neft-qaz gəlirlərinin bütün cəmiyyətin mənafeyi naminə şəffaf və ədalətli şəkildə xərclənməsi uğrunda mübarizə aparır. "2022-ci il üçün mükafatı NHMT-yə - kiçik, amma neft sahəsinin üstünlük təşkil etdiyi ölkədə insan hüquqlarının müdafiəsi üçün böyük işlər görən çox hörmətli təşkilata təqdim etməkdən şadıq", - Kristofer Eyveri (Christopher Avery) Fondunun direktorlar şurasının üzvləri Riqan Ralf və Valeriya Skortsa bu gün bildirib.

NHMT-nin fəaliyyət dairəsinə neftçilərin hüquqlarının müdafiəsi, ətraf mühitin mühafizəsi, energetika sahəsində layihələrə ictimai nəzarətin təşkili daxildir.

Təqdimat mərasimində çıxış edən M.Qəhrəmanlı bu barədə sosial şəbəkədə "rus dilində Şəki ləhcəsiylə" ifadəsi ilə paylaşım edib. Qalibi təbrik etmək üçün Mirvari xanımla əlaqə saxladıqda hazırda xarici ölkədə olduğunu dedi və əlavə etdi ki, nominasiya üzrə qalibi hər hansı təşəbbüs, təqdimat olmadan beynəlxalq təşkilat özü müəyyən edir: "Biz bu mükafata layiqik, təşkilatmızın İdarə Heyəti, üzvləri, ekspertləri, tərəfdaşları... hamısına təşəkkür edirəm və hamını təbrik edirəm. Var olun". "Şəki ləhcəsi" ifadəsinə isə belə aydınlıq gətirdi: "Şəkili hansı dildə danışmağından asılı olmayaraq həmişə Şəki ləhcəsi ilə danışır. Təqdimat mərasimindəki çıxışıma qulaq asdım, gördüm ki, elə şəkiliyəm ki şəkili!".

**Məlahət Rzayeva**

# Erməni vandallığı davam edir

## Qəbir abidələrinin, məzarlıqların dağıdılması beynəlxalq hüquqla ən ağır cinayət hesab olunur



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

**Ermənilərin azərbaycanlılara məxsus qəbirləri dağıtdıqlarını əks etdirən yeni görüntülər yayılıb. Sosial şəbəkələrdə paylaşılan vandallıq videosunun harada çəkildiyi məlum deyil, ancaq relyefinə görə Qarabağa oxşayır. Kadrlarda hərbi geyimdə olan ermənilərin azərbaycanlılara məxsus qəbirləri təhqir etmələri - başdaşılarını sındırmaları və qəbrin üstündə gəzmələri əks olunub.**

Təbii ki, hadisənin hansı ərazidə baş verməsindən asılı olmayaraq, söhbət vandalizm aktından və azərbaycanlıların mədəni irsinə qarşı növbəti vəhşilikdən gedir. Məzarlığın dağıdılması tarixi təhrif edərək azərbaycanlıların izini silmək cəhdidir. Bu isə insanlığa qarşı cinayət faktıdır. Qeyd edək ki, ermənilərin azərbaycanlılara məxsus maddi-mədəni irsi, dini abidələri, müqəddəs məkanları dağıtması və murdarlaması onların köhnə vərdişidir. Mənfurlar mütəmadi olaraq azərbaycanlıların mövcudluğuna dəlalət edən bütün tarixi-memarlıq abidələrini, qəbiristanlıqları dağıdıblar.

Öz miflərini bəşər tarixi hesab edən bu xalq bölgədə Azərbaycan tarixi və mədəniyyətinin mövcudluğu faktına dözüm göstərə bilmir. Hər şeyi, hər yeri və hamını erməni hesab edən haylar əllərinə keçən hər fürsətdə öz qonşularının, xüsusilə də azərbaycanlıların maddi-mədəniyyət nümunələrinə qarşı səlib yürüşü elan edirlər.

Bu gün Azərbaycanın işğaldan azad edilən torpaqlarına səfər edən beynəlxalq ictimaiyyət, KİV nümayəndələri, ümumiyyətlə, hər bir insan Ermənistanın 30 il ərzində bu ərazilərdə törətdikləri vandallıqlardan dəhşətə gəlir, şoka düşür və sözün əsl mənasında, bu vəhşiliyi ifadə etməyə söz tapmırlar. Onlar işğaldan azad edilən torpaqlarımıza etdikləri səfərlər sayəsində insanlığın qənimi, mədəniyyətin düşməni olan erməni qaniçənlərini, vəhşilərini yaxından tanıyırlar. İllərdir Azərbaycan xalqının necə faşist, goreşən düşmənlə mübarizə apardığının şahidi olurlar.

Politoloq Qabil Hüseynli "Şərq"ə açıqlamasında deyib ki, bu hadisəni Azərbaycan xalqına qarşı humanitar hüquq kontekstində törədilən cinayətlərin davamı kimi qəbul etməliyik: "Yayılan görüntülər Ermənistan tərəfindən Azərbaycana qarşı 30 il ərzində həyata keçirilən insanlıq əleyhinə cinayətlərin davamı kimi nəzərdən keçirilməlidir. Qəbir abidələrinin, məzarlıqların dağıdılması həm Azərbaycan qanunvericiliyi, həm beynəlxalq hüquqla ən ağır cinayət hesab olunur. Belə addımlar bəşəriyyətə qarşı ağır cinayətlər kimi nəzərdən keçirilir. Bu addım Azərbaycan xalqının irsinin yer üzündən silinməsi, azərbaycanlılara qarşı törədilən vandal bir hərəkətdir. Təbii ki, bu hərəkəti törədənlər və buna ehtinasız yanaşan bütün şəxslər beynəlxalq hüquqla məsuliyyət daşıyır. Azərbaycan xalqının irsinin dağıdılmasına yönəlmiş hərəkətlər cavabsız qalmamalıdır.

Ermənilər bu abidələri, qəbirləri dağıtmaqla bizim izimizi həmin torpaqlardan silməyə çalışırlar. Belə hərəkətlər işğal altındakı Azərbaycan torpaqlarında da törədilmişdi. 44 günlük Vətən müharibəsi işğaldan azad edilən torpaqlarımızdakı erməni vəhşiliyini də gün üzünə çıxarıb. İndi beynəlxalq aləm faşist xislətli ermənilərin əsl simasını görür və etiraf edir.

Ağdamda, Şuşada və digər işğaldan azad edilmiş bölgələrimizdə qeyri-insani davranışlar sərgilənib, qəbirlər yerlə-yeksan olunub. Bir sıra bölgələrdə, hətta qəbiristanlıqların izi belə silinib. Postmüharibə dövründə ölkəmizə gələn, işğaldan azad edilmiş bölgələri ziyarət edən beynəlxalq aləmin nümayəndələri bu faktları öz gözləri ilə gördülər. Törədilən erməni vəhşiliklərinin miqyası ölçüsüzdür. Yayılan son videogörüntülərdə də analoji vəziyyət əks olunub. Bu faktın harada baş verməsi elə də mühüm əhəmiyyət kəsb etmir. Əsas olan odur ki, ermənilər tarixi, dini, mədəni abidələrimizə qarşı bu kimi vəhşiliklər törədir. Sosial şəbəkələr ermənilərin döyüş meydanında qeybə çəkilən "qəhrəmanlığı"nın bir daha azərbaycanlılara məxsus müdafiəsiz abidələrə qarşı yönəldiyini ifşa edir.

Və təəssüf ki, fəaliyyətini humanitar siyasət üzərində quran bir sıra beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycanın tarixi-mədəni abidələrini yerlə-yeksan etməsinə susqunluq nümayiş etdirir, bu günə qədər həmin məsələyə münasibət bildirmir".

**Politoloqun sözlərinə görə, erməni reallıqlarını dünyaya qəbul etdirən əsas amil beynəlxalq ictimaiyyət nümayəndələrinin işğaldan azad edilən torpaqlara səfər edərək bu vəhşiliklərlə yerindəcə tanış olması, ən başlıcası isə Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi fəal diplomatik fəaliyyətdir:** "Bu yöndə sistemli şəkildə həyata keçirilən uğurlu siyasət sayəsində bəşəriyyət insanlıq və mədəniyyət düşməni olan erməni vəhşilərini tanıyır, illərdir Azərbaycan xalqının necə bir vandal, qaniçən, goreşən düşmənlə mübarizə apardığını görüb vəhşiliklərini anlayır. Bu gün Bakıda erməni abidələri, erməni kilsəsi var, ancaq biz onu təmir etmişik, yaxşı vəziyyətdə qoruyub saxlayırıq. Kəlbəcər rayonu ərazisində alban kilsəsi var, amma ermənilər onu özününküləşdirərək erməni kilsəsi kimi qələmə veriblər. O abidə də qorunur. Ancaq ermənilər bizə qarşı eyni münasibəti sərgiləmirlər. Dünən belə məlumat verdilər ki, Basarkeçər ərazisində ermənilər vaxtilə orada yaşamış azərbaycanlıların qəbirlərini dağıdırlar. Göyçə ərazisində böyük Aşıq Ələsgərin abidəsini yıxıblarsa, digər abidələri dağıtmaq onlar üçün çox asandır, onlar hər fürsətdə erməni vandalizmini nümayiş etdirirlər".

**Millət vəkili Azər Badamov isə hesab edir ki, Azərbaycan xalqının tarixi-mədəni irsinə, məzarlıqlarına qarşı erməni faşizmi məqsədyönlü dövlət siyasətinə çevrilib:** "Torpaqlarımızı 30 il işğal altında saxlayan Ermənistan Azərbaycanın misilsiz mədəniyyət abidələrini məhv edib. Bunu faktlar da təsdiqləyir. Ermənistan tərəfindən işğal edilmiş qədim Azərbaycan torpaqlarında dünya əhəmiyyətli 13, ölkə əhəmiyyətli 292 və yerli əhəmiyyətli 330 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi, tarix və mədəniyyət abidələri olub. Bütün bunlar ermənilər tərəfindən dağıdılıb, yerlə-yeksan edilib. Onlar nəinki tarixi-mədəni irsə hörmət göstərməyib, həm də qəbirləri dağıdıblar. Bu isə ən qeyri-insani hərəkətlərdir".

**Millət vəkili bildirib ki, baş verənlər rəsmi Bakının Ermənistan ərazisindəki azərbaycanlılara məxsus tarixi-mədəni abidələrin taleyinin UNESCO tərəfindən araşdırılması üçün missiyanın yaradılması təklifinin aktuallığını bir daha göstərir.** "Maraqlıdır ki, ortada faktlar mövcuddur, amma UNESCO hələ də susmağa üstünlük verir. UNESCO-nun laqeyd münasibəti fonunda erməni tərəfi Azərbaycan xalqının yüz illiklər boyu yaratdığı mədəni-tarixi irsi dağıtmaqda davam edir. UNESCO 1954-cü ilin Haaqa Konvensiyasının şərtlərinin kobudcasına pozulmasına göz yumduqca, dağılan abidələrin, məzarlıqların, məscidlərin sayı artır", - deyən A.Badamov əlavə edib ki, tarixi abidələrin qorunmasını özünə öhdəlik kimi seçmiş UNESCO işğaldan azad edilmiş ərazilərimizdə törədilən vəhşiliklərə də göz yumur. Müharibənin bitməsindən ötən 2 il ərzində bir dəfə də olsun işğaldan azad edilmiş regionlara araşdırmaçı missiya göndərilməyib. Halbuki baş verənləri, milli-mədəni abidələrimizə qarşı törədilən vandalizm aktlarını dünyaya yaymaq, onları qorumaq birbaşa UNESCO-nun üzərinə götürdüyü missiya və vəzifədir: "Prezident İlham Əliyev də dəfələrlə bildirib ki, işğal edilmiş torpaqlara missiya gəlsin, baxsın ki, nə günə qoyublar bizim tarixi abidələrimizi. Azərbaycan hər zaman UNESCO-ya ciddi töhfələr vermiş ölkələrdəndir. Dünyanın bir çox yerində bəşəri mədəniyyətin bir parçası adlanan nümunələrin qorunmasında Azərbaycan həm təşəbbüskar, həm də maliyyəçi qismində iştirak edib. UNESCO-nun ən yeni tarixində, fəaliyyətində, nüfuzunun artırılmasında mənəvi mənada borcu olduğu ölkələrdən biri məhz Azərbaycandır. Mənəvi şəkildə borclu olduğu ölkəyə qarşı belə yanaşma isə adekvat sayıla bilməz. UNESCO-nun bu addımı elan etdiyi, üzərinə götürdüyü vəzifə və öhdəlikləri lazımi şəkildə həyata keçirə bilmədiyini deməyə əsas verir".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Sabir Rüstəmxanlı hiddətləndi

## "Sənin nə sözün varsa, mənə ayrıca yaza bilərsən, amma şəkil və şeir paylaşmama "bunları burax", deyə bilməzsən"



***"Millət vəkillərinin hamısı bir deyil, lakin çoxu imkan daxilində ölkədəki haqsızlıqları dilə gətirir. Lakin bu dədər düşməni olan, yurdları viran qoyulmuş, yaralarını sağaltmaq istəyən bir ölkədə hər şeyin birdən-birə düzələcəyini gözləməyək"***

**Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı sosial şəbəkədə payız fəsli ilə bağlı paylaşım edib. Bir qucaq xəzəllə fotosunu paylaşan şair bu misraları əlavə edib:**

**Təbiət ağlayır adamdan betər,**
**Heç belə qırmızı göz yaşı olmaz.**
**Bir çılpaq ağacdı ortada qalan,**
**Canlıdır, canlıdan baş daşı olmaz.**
**Çiynimə bir yarpaq qonur astaca,**
**Bəlkə də ömrümün xəritəsiydi,**
**Bəlkə də özümdüm budaqdan düşən,**
**Bir doğma ürəyin ilk arzusuyla**
**İsidən olsaydı diriləsiydim...**

*Xalq şairinin paylaşımı xeyli bəyənmə qazanıb. Şairə cansağlığı, uzun ömür arzulayanlarla yanaşı irad bildirənlər də olub. Şairi - millət vəkilini payızı vəsf etməkdənsə, daha vacib problemlərlə maraqlanmağı "məsləhət görüblər". Sabir Rüstəmxanlı irad bildirənlərə belə cavab verib:*

"... Məni tanıyanlar bilirlər ki, xalqı düşünən, onun haqlarını müdafiə edən, bu yolda mübarizə aparan adamam və bunun çox əziyyətini çəkmişəm. Sənin (irad bildirən şəxs - red.) nə dediyini, nə istədiyini, camaatımızın çətinliklərini bilirəm və bunu həmişə deyirik, bu barədə yarım əsrdir yazırıq. Siz isə haqqın harda olduğunu bilmirsiniz, yananla, yandıranı qarışdırırsınız. Sözü kimə və harda deməyi bilmirsiniz. Hamını ittiham etmək olmaz. Millət vəkillərinin hamısı bir deyil, lakin çoxu imkan daxilində öz sözünü deyir, seçicilərinin şikayətlərini, ölkədəki haqsızlıqları dilə gətirir. Lakin bu dədər düşməni olan, yurdları viran qoyulmuş, yaralarını sağaltmaq istəyən bir ölkədə hər şeyin birdən-birə düzələcəyini gözləməyək. Məsələ təkcə qiymət siyasətinin yanlışlığı və sosial yardımın bölgüsündəki haqsızlıqlarda deyil. Bəyənmədiyiniz deputatların içində bu dövlətin və millətin bütün dərdlərini görən və deyənlər var. Deputat qanun verir, onu icra edənlər başqalarıdır. Mən şairəm. Bir payız ovqatıyla paylaşdığım şəkli, oradakı şeiri bu məsələlərlə qarışdırma! Seçicilər qarşısında öhdəliklərim var və onları imkan daxilində yerinə yetirirəm, lakin öz ruhumu da onlara əsir edə bilmərəm. Balaca bir şeir paylaşan kimi "bunları buraxın", demək - "sənin 50 illik yazı-pozunun heç bir dəyəri yoxdur, bunu unut", deməkdir və mən bunu özümə, ədəbiyyat və mədəniyyətimizə hörmətsizlik sayıram. Ən azı buradakı yorumlara bax! Sənin nə sözün varsa, mənə ayrıca yaza bilərsən, amma şəkil və şeir paylaşmama "bunları burax", deyə bilməzsən. Hərə öz sözünün və rəftarının məsuliyyətini bilməlidir. Bir-birimizə sayğımızı itirməyək!..".

*Qeyd edək ki, sosial şəbəkə izləyiciləri bu cavabdan sonra xalq şairini dəstəkləyib və bəyənmə işarəsi qoyublar.*

**Məlahət Rzayeva**

**"İran harada bir gərginlik qığılcımı varsa, orada vəziyyətin daha da ağırlaşmasına çalışır".**

**Bunu "Şərq"ə "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları"**



# İran Rusiyaya və Ermənistana silah ötürür

## Beynəlxalq aləm bu davranışı Tehrana bağışlamayacaq

**Mərkəzinin sədri, politoloq Samir Hümbətov NATO-nun baş katibi Yens Stoltenberq İrana xəbərdarlığından danışarkən deyib.** Onun sözlərinə görə, Rusiya-Ukrayna savaşında İranın şimal qonşumuza satdığı PUA və digər silah-sursatlar müharibənin gedişinə ciddi təsir göstərməsə də, Ukraynada dinc əhalinin qətliamına səbəb olan amillərdən biri kimi qiymətləndirilə bilər: "Tehranın təkcə Rusiyaya deyil, həmçinin Ermənistana da silah-sursat ötürməsi, PUA-larının düşmən ölkəyə satılması üçün erməni hərbçilərinə öz ərazilərində təlim keçməklə bağlı məlumatlara rast gəlinir. Bundan başqa bir neçə gün öncə Ukrayna tərəfindən iranlı hərbçilərin öldürülməsi ilə bağlı informasiyalar yayılıb. Əlbəttə ki, İranın mütəmadi şəkildə addımları təkcə Ermənistana, yaxud da Rusiyaya dəstək verməklə bitmir. Eyni zamanda Yaxın Şərqdə də bəzi terrorçu dəstələri maliyyələşdirir. Onları silah-sursat və hərbi təchizatla təmin edir. Bütün bunları etməkdə bir məqsəd var. İran "bulanıq suda balıq tutmaq" siyasəti yürüdür. Hər kəsə aydın olan davranışları digər dövlətlər heç də xoş qarşılamır. Belə hərəkətlər rəsmi Tehranın öz daxilindəki gərginliyin pərdəarxasına keçirilməsi planlarından xəbər verir.

Yəni öz daxilində iqtisadi vəziyyətin ağırlığı və rejimin yaratdığı gərgin durumla əlaqədar olaraq, insanların narazılığını ört-basdır etməyə çalışır. Bunların hər biri hesablanmış planlardır.

Bölgədə ümumi gərgin atmosferin davam etməsi cənub qonşumuzun maraqlarına cavab verir. Nəzərə almalıyıq ki, ölkə daxilində artıq yalnız Azərbaycan türkləri deyil, eyni zamanda kürdlər, ərəblər və digərləri də İrana qarşı etiraz edirlər. Hətta farsların özü belə indiki rejimi narazılıqla qarşılayır.

Bu o deməkdir ki, molla rejimi heç öz daxilindəki problemlərini həll edə bilmir. Təbii ki, onun məlum siyasəti sonda özünün dövlət maraqlarına böyük zərbə vuracaq. İranın atdığı addımlar sülhə xidmət etmir".

**Sücayət Mehti**

# NATO Ukrayna üçün ümid yeri saxlayır

## Baş katibin açıqlaması sırf siyasi məqsədlər üçün gündəmə gəlmiş bəyanatdır



**Hərbi əməliyyatlar başa çatdıqdan sonra Ukrayna NATO-ya üzv ola biləcək. Bunu NATO-nun baş katibi Yens Stoltenberq bildirib. O əlavə edib ki, Rusiyanın hər hansı ölkənin Alyansa qoşulmasını qadağan etmək üçün veto hüququ yoxdur.**

Baş katib bildirib ki, Ukraynanın hərbi uğurları nə qədər çox olsa, onun qarşıdakı danışıqlarda mövqeyi bir o qədər güclü olacaq. Stoltenberq qeyd edib ki, Putin müharibədə qalib gələrsə, o və digər diktatorlar öz məqsədlərinə çatmaq üçün zorakılıqdan istifadə etməyə davam edəcəklər: "Bu, daha çox müharibə və daha çox əzab deməkdir. Bu, dünyamızı daha da təhlükəli edəcək. Ukraynanın qalib gəlməsi bizim öz marağımıza uyğundur". O, Ukraynaya yardımın Qərbə baha başa gəldiyini etiraf edib: "Ərzaq və enerji qiymətlərinin artması Avropada bir çox ev təsərrüfatları üçün çətin günlər deməkdir. Ancaq yadda saxlamalıyıq ki, Ukrayna xalqı bunun əvəzini hər gün öz qanı ilə ödəyir". Xatırladaq ki, Ukrayna xarici işlər naziri Dmitri Kuleba NATO-ya çağırış etmişdi. Bildirmişdi ki, hərbi alyans ölkələri təcili olaraq silah istehsalını artırmalıdır. Bu baş verməsə, Ukrayna müharibədə qalib gələ bilməz.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında deyib ki, Stoltenberq daim Ukrayna üçün ümid yeri saxlayır. Analitik qeyd edib ki, NATO və Qərb ölkələrinin "Ukrayna hərbi bloka üzv ola bilər, bunun üçün ciddi maneə yoxdur" vədləri uzun illərdir gündəmdədir:** "Təşkilata üzv olmaq üçün müəyyən prosedurlar var. İsveç və Finlandiya nümunəsində görürük ki, proses çox uzun çəkir və xeyli vaxt aparır. Əsas məsələ isə odur ki, NATO ölkələrinin hamısı Ukrayna ilə bağlı yekdil fikirdə deyillər. Bir sıra ölkələr ciddi tərəddüd içindədir və Kiyevə vaxt verilməsini tələb edirlər. Fikrimcə, baş katibin açıqlaması sırf siyasi məqsədlər üçün gündəmə gəlmiş bəyanatdır. Daha doğrusu, Stoltenberqin arzusudur ki, Ukrayna da NATO üzvü olsun. Prinsip etibarı ilə əksər Qərb ölkəsi də ümumən bu fikirdədir. Amma hərbi alyansın şərtləri də dəyişməz olaraq qalır. Yəni əvvəlcə müharibə sona çatmalı və Kiyev tələb olunan siyasi şərtlərin reallaşması istiqamətində addımlar atmalıdır. Sonda isə NATO üzvlərinin hamısı Ukrayna lehinə səs verməlidirlər. O ki qaldı Rusiyanın mövqeyinə, zaman keçdikcə reallıqlar da dəyişir. Əgər Ukrayna həqiqətən hərbi alyansın şərtlərini yerinə yetirmək iqtidarında olarsa, o zaman Qərb Rusiyanı fakt qarşısında qoya bilər".

**İsmayıl Qocayev**

# Xırdalan şəhərinə metro xətti hava-su kimi lazımdır

## Bakıda 9 yeni stansiyanın tikintisi ictimai nəqliyyatın yükünü azaldacaq




**Bakıda doqquz yeni metro stansiyası tikiləcək.**

**Bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov "ATV Səhər"ə proqramında bildirib. Onun sözlərinə görə, yeni stansiyalardan 3-ü "Dərnəgül" və "Koroğlu" stansiyaları arasında yerləşəcək.**

İki metro stansiyası Ziya Bünyatov prospektinin, üçüncüsü isə "Koroğlu" stansiyasının yaxınlığında tikiləcək. Digər yeni stansiyalar Ağ Şəhərdə, NSZ qəsəbəsində, eləcə də köhnə avtomobil zavodunun yaxınlığında tikiləcək.

**Nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov bildirib ki, "Koroğlu" metrostansiyasından aeroporta qədər olan məsafə təxminən 26 kilometrdir. Bu iki ərazini birləşdirən metro xətti tikilsə, azı 6-7 nöqtədə yeni metro stansiyaları açılar. Ona görə də aeroporta metro xətti çəkmək olduqca vacibdir.**

Aslan Əsədov əlavə edib ki, hazırda ölkəmizdə nəqliyyatın intellektual idarəetməsi tam təşkil olunmayıb: "İntellektual idarəetmə o demək deyil ki, hər yerə kameralar quraşdırıb müşahidə etsinlər. Bu, o deməkdir ki, insanların sıx yaşadığı ərazilərlə nəqliyyatın düzgün təşkili təmin olunsun". O vurğulayıb ki, paytaxt yollarında sıxlığı aradan qaldırmaq üçün Xırdalan şəhərinə metro xətti hava-su kimi lazımdır:

"Düzdür, Xırdalan ərazisindən elektrik qatarı keçir. Ancaq hər kəs bu nəqliyyat növündən istifadə etmir. Buna ancaq Bakıxanov, "28 May" metrosu tərəfə gedənlər minir. Lakin hazırda Xırdalandan "20 Yanvar"a nə qədər avtobus gəlir. Hamısı da həm yollarda tıxac yaradır, həm də elə özü tıxacda qalır. Buna görə də Xırdalanda ən azı 2 metro stansiyası olmalıdır. Bundan başqa Badamdar, Bayıl, 20-ci sahə istiqamətlərində də metronun olmağı vacibdir. Biz tədbirlər keçirilən vaxtlarda baxırıq ki, Şəhidlər xiyabanı tərəfdə insan sıxlığı müşahidə edilir".

Daha sonra ekspert metro xəttinin vacib olduğu ərazilərdən biri kimi Yeni Yasamalın adını xüsusi vurğuladı: "Yeni Yasamal və Alatavanın yuxarı hissəsinə də metro çəkilməlidir. Bu ərazilərdə təxminən 25-30 min əhali yaşayır. İnsanların sayı da günü-gündən artır. Buna görə ən azından Yeni Yasamala metro vacibdir. Aeroporta metro çəkilməsi məsələsinə gəldikdə isə "Koroğlu" metrosundan bura qədər olan əraziyə metro çəkilsə, bir neçə qəsəbə və ərazidən - Sabunçu, Suraxanı, Şuşa şəhərciyi, Binə qəsəbəsi tərəflərə metro xətti keçər. Əgər bu baş tutsa, 6-7 yeni metro stansiyası tikilər. Aradakı məsafə 26 kilometrdir. Bu, az məsafə deyil".

**Nəqliyyat eksperti Eldəniz Cəfərov isə "Şərq"ə açıqlamasında deyib ki, Bakı şəhərində əlavə 9 metro stansiyasının tikilməsi xəbəri şəhər sakinləri üçün olduqca sevindirici xəbərdir:** "Hesab edirəm ki, yeni stansiyalar Bakı Metropoliteninin İnkişaf konsepsiyası əsasında həyata keçirilir. Hansı ki 2027-ci ildə bir, 2040-cı ildə isə ikinci fazanın həyata keçirilməsi nəzərdə tutulur. Düşünürəm ki, iri sənaye və paytaxt şəhəri olan Bakının hər bir nöqtəsinə metro xətlərinin çəkilməsi məqbul sayılar. Amma təkcə bizim istəyimizlə yox, yeraltı relyefin imkanları daxilində həyata keçiriləcək. Yeraltı nəqliyyat vasitəsinin sayının çox olması nəqliyyat sahəsindəki mövcud problemlərin həlli baxımından böyük üstünlükdür. Yeni stansiyaların əhalinin sıx məskunlaşdığı ərazilərə yaxın inşa edilməsinə diqqət edilməlidir. Yeni stansiyaların tikintisi planlaşdırılarkən elmi təhlillər aparılmalıdır. Elə etməlidirlər ki, yeni stansiyalar sərnişin sıxlığının azaldılmasına xidmət etsin. Bununla yerüstü ictimai nəqliyyatın yükü də azalar, əhali tıxaclardan çox əziyyət çəkməz".

**Şəymən**



# "Fazil Mustafaya təşəkkür edirəm"

## Zəlimxan Məmmədli: "Gürcüstan və Azərbaycan ortaq universitetinin yaradılması vacibdir"

**Milli Məclisin dünən keçirilən iclasında Gürcüstandakı milli məktəblərimizlə bağlı məsələ qaldırılıb.**

Bu barədə deputat Fazil Mustafa çıxış edib. Plenar iclasda söz alan deputat bildirib ki, milli məktəblərimizdə kadr çatışmazlığı var: "Problemin həlli yolları var. Bunun üçün Tbilisidə Gürcüstan və Azərbaycan hökumətinin dəstəyi ilə ortaq universitet yaradıla bilər. Bu gün Gürcüstanda yaşayan soydaşlarımız arasında cəhalət artmaqdadır. Bunun qarşısını almalıyıq".

**İlk təklifin ona məxsus olduğunu deyən əslən Gürcüstandan olan ictimai-siyasi xadim Zəlimxan Məmmədli "Şərq"ə vurğulayıb ki, Fazil Mustafaya belə ideyalara dəstək verdiyi üçün təşəkkür edir:** "Biz hətta bir zamanlar Gürcüstan hökuməti ilə universitet üçün yer məsələsini də danışmışdıq. Onlar ərazinin ayrılacağına söz verdi. Lakin Azərbaycan tərəfi buna investisiya ayırmaqda elə də maraq göstərmədi. Ümumiyyətlə isə belə bir universitetin açılması, həm soydaşlarımızın Gürcüstan cəmiyyətinə qarşılıqlı inteqrasiyası üçün, həm də intellektual insanlarımızın sayının artması üçün böyük avantajdır. Digər tərəfdən qarşılıqlı dərslərin keçirilməsi ilə zərərli tendensiyalardan və dini xurafatlara meyillilikdən qaçmaq mümkündür.

Birmənalı şəkildə bizə məxsus olan ideyanın bu gün istifadə edildiyi üçün isə çox şadam. Azərbaycan hakimiyyətini də bu cür məsələlərə sağlam yanaşmağa dəvət edirəm".

**Nihat Müzəffər**

# Bu qidaları yeyən oğlanlar qız kimi olur

## Professor xəbərdarlıq edib



**Son zamanlar tez-tez belə bir fikir səslənir ki, "bəzi oğlan uşadlarının danışıq, davranış və ünsiyyət formasında əks cinsə oxşarlıq müşahidə edilir". Odur ki, bu problemlə bağlı elmi həqiqətləri söyləməyi lazım bildim.**

Bu barədə professor Musa Qəniyev bəzi oğlan uşaqlarında müəyyən yaş dövründə müşahidə edilən və narahatlığa səbəb olan hallar hormonal aktivliyin dəyişilməsi barədə açıqlama verib.

"Bəzi oğlan uşaqlarında müəyyən yaş dövründə müşahidə edilən və valideyinlərin narahatlığına səbəb olan hal isə, hormonal aktivliyin modulyasiyasıdır. Yəni patoloji proses deyildir. Fizioloji kənaraçıxma kimi dəyərləndirilən bu halın əsasında, zülali qidalanmada hormonal tənzimin pozulması durur (məsələn, heyvandarlıq və quşçuluq təsərrüfatlarında, hormonlarla zənginləşdirilmiş zülal tərkibl, yemlərdən nəzarətsiz istifadə və s.). Müxtəlif yarımfabrikat, enerjili içkilər, fast foot və s. qidalara normativə tam əməl olunmayan E120, E621, E250 və s. kimi fərdi indeksli iştah və dad artırıcı əlavələr də bura aiddir.

Uşaq orqanızmində hormonların dəyişim nisbəti, fizioloji tarazlıq halına, ilkin yetkinlik yaş dövründə, yəni təbii dinamik fərqlilik nisbətinə qədəm qoyduqda, tam bərpa olunur. Odur ki, bəzi oğlan uşaqlarında müşahidə olunanlar, yalnız qeri dönüşlü müvəqqəti hal və ya fizioloji pozğunluqdur. O, xüsusi narahatlığa səbəb olacaq, heç bir ciddi patologiyadan xəbər vermir. Buna görə valıdeyinlər qorxu, stress və gərginlik hissi keçirməməlidir. Yalnız uşaqları qorumalı, qüruruna toxunmamalı, özünə qapanmaya imkan verilməməli, bunun müvəqqəti bir hal olduğunu həm özləri anlamalı, həm uşağa, həm də yaxın ətrafa anlatmalıdırlar.



Başqa sözlə, bunun, yuxarıda dediyim svilizasiya dönəmilə bağlılığı və ya aşağıda təhlilini verdiyim məlum xəstəliklə heç bir əlaqəsi yoxdur. Yəni bu hal nə xəstəlik, nə də patoloji proses deyildir.

İndi isə, məlum səbəbdən, insanları qorxudan, irsi gedişli arzuolunmaz xəstəlik barədə. Bəli, ............ və s. adlarla adlandırılan patoloji hal, müstəqil nozoloji vahiddir. O, X xromosomu, yəni ana xəttilə (bu cür qadınlarda cinsi istəkdə müəyyən fərqlilik olur) nəsildən-nəsilə verilən, irsi genetik xəstəlikdir. Çünki, oğlan uşaqları X xromosomunu anadan alır və ana xətti oğlanlarda daha güclü olur. Odur ki, ana tərəfdə məlum xəstəlik varsa, dünyaya gələcək oğlan uşaqlarının daşıyıcı olma ehtimalı yüksəkdir, lakin mütləq deyildir. Çünki, bu xəstəlik cəmi 3 nəsil davam edir. İlkin mənbədə bu gen inaktivdir.

Bizim gördüyümüz aktiv faza 2-ci nəsildə olur. 2-ci nəsildə X xromosomunu ana xəttilə alan, onun qaşıyıcı və ötürücüsü olan qız uşaqlarında isə, bu gen telomer itkisi səbəbindən 50:50 faiz nisbətində inaktivləşərək, növbəti 3-cü nəslə, remissiv şəklə ötürülür. Nəticədə, anaya münasibətdə 2-ci, əslində 3-cü nəsil sayılacaq, doğulan oğlan uşaqlarında, bu xəstəliyin baş vermə ehtimalı sıfr faiz nisbətinə olur. Yəni bu cür şəxslərə görə də, gələcək nəsil üçün xüsusi naraharlığa əsas yoxdur. Çünki, əksər gen patologiyalarından fərqli olaraq bu xəstəlik əbədi deyildir. Biz onun aktivlik halını yalnız 2-ci nəsildə görürük.

Son olaraq, xatırlatmaq istəyirəm ki, istər bu, istərsə də digər xəstəlikdən qorunmağın əsas yolu, təbiətin mütləq qanunları, xüsusən, əksiliklərin vəhdətini (gecə-gündüz, yaxşı-pis, qadın-kişi və s. kimi) mövcudiyyətin təməl əsası kimi qəbul edib, ona tabe olmaq və əməl etməkdir. Yalnız bu halda "abnormal" hal və xəstəliklərdən sığortalanmış olarıq"

**Elan**

Fərzəliyeva Ədilə Mehrəli qızına məxsus Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi Xarici dil üzrə fəlsəfə doktoru imtahanının nəticələrinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

"Bakı Sualtı Ovçular Klubu" İctimai Birliyinə aid olan sənədlər (Nizamnamə, Şəhadətnamə, Dövlət Reyestrindən Çıxarış) itdiyi üçün etibarsız sayılır.

Musayev Əli Musa oğluna Dövlət sərhəd xidməti çevik hərəkət qüvvələri tərəfindən verilmiş 0002404 saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Həkimə müraciət edənlərin sayı artıb

## Təkcə telefonlar yox, kompüter və televizorlar da insanlar arasında onurğa əyriliyinin artmasına səbəb olur

**Fəqərələrarası disk yırtığı, radikulopatiya, miofassal sindrom, beldə digər ağrı və problemlər telefon və planşetlərdən müntəzəm istifadə nəticəsində ola bilər.**

İdman həkimi Aleksandra Çistyakova əlindən telefonu buraxmayan insanlarda spesifik poza yarandığını və bunun fəsadlarını açıqlayıb: "Tibdə buna SMART qamət deyilir. Boyun aşağı əyilir, əzələlər gərginləşir, çiyinlər yığılır, əl dirsək və biləkdən daim qatlanmış vəziyyətdə olur. Telefon boyundan xeyli aşağıdadır və insan üzünü telefona sarı aşağı yaxınlaşdırır.

Getdikcə bu qamət bir çox nevroloji pozulmalara gətirib çıxarır. Bunlardan biri Karpal tunel sindromudur - əl, bilək, barmaqlarda hərəkət məhdudiyyəti, sinir sıxılması, keyimə, ağrı.

Digər problem boyun ostexondrozu, yırtığıdır. Telefona əyilmiş boyun onurğaya təzyiqi artırır, bu da ümumi kürəkdə ağrılara səbəb olur.

Ağırlaşma kimi lümbaqo, işias, yırtıq ola bilər.

Onurğa, qamət əyilməsi xroniki baş ağrısı, boyun qurumasına səbəb olur. Onurğa əyildikcə daxili orqanlara da basqı artır, yerdəyişmə olur"



**Fizioterapevt Sənan Cəfərovun sözlərinə görə, təkcə telefonlar yox, kompüter və televizorlar da insanlar arasında onurğa əyriliyinin artmasına səbəb olur.**

Heç şübhəsiz, insanlar arasında telefondan istifadə faizinin yüksəlməsi onurğa sütunu xəstəliklərini artırıb: "Vücudumuzda iki daşıyıcı sistem mövcuddur. Biri skelet, digəri isə ona yardımçı olan əzələ sistemidir. Əgər əzələ sistemi çox zəifdirsə, onda bütün güc skeletin üzərinə düşür. Onurğa əyriliyi bu zaman meydana çıxır. Bu təkcə bədənin deformasiyasına deyil, həmçinin digər görkəm pozulmalarına da gətirib çıxarır. Təkcə bel deyil, qol, ayaq, çiyin və boyunda da sümüklər əyilir, sızlamalar başlayır.

Onurğa əyriliyinin ən geniş yayılan növü skoliozdur. Skolioz onurğa sütununun yana əyilməsi deməkdir. Onurğa S hərfinə bənzəyir. Bu, onurğa xaricindəki problemlərdən irəli gəlir. Skolioz ağır və yüngül olur. Əgər bir çox sümüklərdə əyilmələrə rast gəlinirsə, buna "ağır skolioz" deyilir. Sadə skoliozda isə onurğa sütunu əyilməyə başlayır".

Onun sözlərinə görə, insanlar telefondan istifadə edərkən bədənlərini əyirlər: "Boyun aşağı sallanmış vəziyyətdə telefonda saatlarla oyun oynayırlar. Bu da onurğada böyük problemlərə gətirib çıxarır. Sinir sıxılmaları, baş ağrıları özünü göstərir. Bundan başqa telefon radiasiya da yaradır. Ona görə də telefonla çox danışmaq məsləhət görülmür. Nə qədər imkan varsa, o qədər az danışmaq lazımdır. Hətta telefon olmasa, çox gözəl olar".

Həkim bildirib ki, mobil telefonların olmadığı dövrdə insanlarda indiki kimi onurğa xəstəlikləri olmayıb. Hazırda isə bu xəstəliklə bağlı müraciət edənlərin sayı çoxalıb: "Onurğa problemi ilə bağlı müraciət edən xəstələrin müayinəsi, əlamətlərin araşdırılması zamanı narahatlıqların daha çox telefon istifadəsindən yarandığı ortaya çıxır. Problemlə bağlı müraciət edənlər arasında hər yaşdan olanlar var. İnsanın sağlamlığı birinci növbədə onun qamətindədir. Əgər onurğa stününun qamətində problem yaşanırsa, bu, insan sağlamlığına mənfi təsir göstərir. Zaman-zaman fəqərələr burulur, əyilir. Bu, skolioza gətirib çıxaran amillərdən biridir".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3421



## Dünya Çempionatında ilk dəfə

### Qadın hakim fit çalacaq

**FİFA 2022-ci il Dünya Çempionatının E qrupunda keçiriləcək Kosta Rika - Almaniya matçını fransalı hakim Stefani Frappartın idarə edəcəyini açıqlayıb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, bu, dünya çempionatında ilk dəfə qadın hakimin fit çaldığı matç olacaq.**

FİFA E qrupunda dekabrın 1-i, cümə axşamı keçiriləcək oyunları idarə edəcək digər hakimləri də açıqlayıb.

Məlumata görə, Əl-Beyt stadionunda saat 22:00-da başlayacaq Kosta Rika - Almaniya matçını fransalı qadın hakim Stefani Frappart idarə edəcək.

*Qadın hakimlər Neuza Back və Karen Diaz Frappartın köməkçiləri olacaq.*

**Turan**

## İtlə təhdid cinayət sayıldı

### Məhkəmə 2 ildən 5 ilədək həbs cəzası tələb edib



**Türkiyə Ali Məhkəməsi "sizi itimə qapdıraram" kəlməsinin cinayət məsuliyyəti daşıdığına dair qərar verib və bunu "silahla təhdidetmə" ilə eyniləşdirib.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Türkiyə Ali Məhkəməsi 4-cü Cəza Dairəsi qarşısındakı şəxsi itlə təhdid edərək "səni köpəyimə qapdıraram" deyən şəxsə çıxarılan məhkəmə hökmünü ləğv edərək itlə təhdidin silah təhdidi ilə eyni dərəcədə olduğuna qərar verərək şəxsin bu maddəylə mühakiməsini tələb edib. Hadisə iki avtomobilin toqquşması zamanı baş verib. İçkili vəziyyətdə sükan arxasında əyləşmiş şübhəli, digər avtomobillə toqquşub. Günahkar özü olduğu halda avtomobildəki qurd əsilli itini göstərərək "əlimdəki iti buraxaram, sizi parçalayar, avtomobilimi təmir etdirəcəksiniz", deyərək avtomobildəkiləri təhdid edib. Qəzada xəsarət alanlar da şikayətçi olaraq məhkəməyə müraciət edib. Məhkəmə şəxsin qarşıdakı insanları itlə qorxutmasını silahla təhdid edilməyə bərabər əməl sayaraq haqqında 2 ildən 5 ilədək həbs cəzası tələb edib. Ali Məhkəmənin 4-cü Cəza Dairəsi üzvlərindən biri isə itin əşya, alət deyil, canlı olmasına diqqət çəkərək bu təhdidin silahla eyniləşdirilməsinə qarşı çıxıb. Məhkəmənin hansı qərar verəcəyi hələ ki bilinmir.

**Məlahət**

## Tanınmış fenomen keçmiş sevgilisini sildi



**Türkiyəli məşhur fenomen Danla Biliç bir müddət əvvəl sevgilisi aktyor Kubilay Aka ilə yollarını ayırıb.**

**Lent.az xəbər verir ki, cütlük hər iki tərəfin razılıqları ilə ayrıldıqlarını bildirib.**

**Biliçlə münasibətinin bitdiyini açıqlayan Aka, "Çalışdıq, alınmadı, istəklərimiz uyğun gəlmədi. Bu barədə çox danışmaq istəmirəm. Münasibətimiz bitdi",- deyib.**

**Danla şəxsi "Instagram" hesabından Kubilayı izləmədən çıxarıb. Aktyor Aka isə hələ də Biliçi izləməyi davam edir.**

## Qadın yaddaşını itirdi

### Yenidən ərinə aşiq oldu



**Böyük Britaniyada qadın başına zərbə dəydikdən sonra yaddaşını itirir.**

**"Medicina" xəbər verir ki, 2016-cı ildə, 44 yaşlı Stev Harvi suda idman növünə yazılaraq, qayıq sürməsi zamanı qayıqdan düşərək başından travma alıb.**

**Beyin silkələnməsindən sonra xəstəxanada qadın adını xatırlaya bilməyib. Ərini atası, qızını bacısı ilə səhv salıb.**

**MRT-dən sonra həkimlər onda postkontizuon sinrdom, hissəvi yaddaş itkisi diaqnoz ediblər.**

**Amneziya səbəbindən Stef ərini xatırlamayıb, evində yad kişi ilə yaşadığını güman edib.**

**İlk vaxtlar ağlayan qadın yaddaşına görə işindən də olub. Amma zaman keçdikcə o, ərinə yenidən vurulmağa başlayıb.**

**"Bir neçə ildən sonra mənim başımda kifayət qədər yeni informasiya toplandı və mən anladım ki, həqiqətən yaxşı bir insana ərə getmişəm, Riçard ən yaxşı kişidir" - deyib**

**İndi qadın özü kimi xəstələrin reabilitasiyası mərkəzində assistent kimi çalışır.**



# 37 min metr yüksəklikdə dəhşət yaşandı

### Qadın "Həzrət İsa belə istəyir" deyərək təyyarənin qapısını açmağa çalışıb



**ABŞ-da "Southwest Airlines" aviaşirkətinin uçuşunu həyata keçirən təyyarədə qorxulu anlar yaşanıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, noyabrın 26-da ABŞ-ın Texas ştatından Ohayoya uçan "Southwest Airlines" təyyarəsi 37 min metr yüksəklikdə problemsiz hərəkət edirdi. Bir anda 34 yaşlı Elom Aqbeqninou adlı sərnişin üsyankar hərəkətləri ilə insanları vahiməyə salıb. Təyyarədə olan bir sərnişinə xəsarət yetirdikdən sonra xəstə adamı saxlamaq mümkün olub. "Southwest Airlines"a məxsus təyyarə insidentdən sonra "sərnişin xəstəliyi" səbəbindən fövqəladə vəziyyət elan edib və təyyarə Arkanzas ştatının Bill və Hillari Klinton hava limanına enib. Yaralı sərnişin xəstəxanaya aparılıb, problem yaradan Elom Aqbeqninou isə hava limanında saxlanılıb.

Hadisə ilə bağlı Təhlükəsizlik Xidməti açıqlama verib: "Baş verənlərlə əlaqədar bir nəfər nəzarətə alındı, bir nəfər isə xəstəxanaya aparıldı. Hadisə ilə bağlı təhlükəsizlik qüvvələri və müstəntiqlər birgə hərəkət edir, araşdırmalar davam etdirilir".

Hadisənin təfərrüatları isə eşidənləri heyrətə salıb.

Təyyarə təcili eniş etdikdən sonra saxlanılan problemli sərnişinlə bağlı məlumatlar ortaya çıxıb. Bildirilib ki, Elom Aqbeqninou uçuş zamanı ayağa qalxaraq təyyarənin çıxış qapısını açmağa çalışıb. Sərnişin havaya qalxdıqdan sonra stüardessalar ona öz yerinə qayıtması barədə xəbərdarlıq ediblər. Xəbərdarlığa məhəl qoymayan qadın xidmətçiləri təyyarənin arxa qapısına tərəf itələyərək qapını açmağa çalışıb. Hadisə zamanı xuliqan sərnişini sakitləşdirmək istəyən digər sərnişin yaralanıb.

Elom Aqbeqninou nəzarət altına alındıqdan sonra o, təyyarədə başını yerə vurmağa başlayıb və bu sözləri işlədib: "Həzrəti İsa dedi ki, qapını açım".

Problemli sərnişin təcili eniş etdikdən sonra təyyarəyə minən təhlükəsizlik qüvvələri tərəfindən nəzarətə götürülüb. Omba nahiyəsindən dişlənən və yaralanan digər sərnişin xəstəxanaya aparılıb.

Təhlükəsizlik qüvvələri tərəfindən saxlanılan Aqbeqninou hadisəni araşdıran müstəntiqlərə ifadəsində Merilend ştatında ailə dostuna baş çəkməyi planlaşdırdığını deyib. Sərnişinin qəfil qərarla səfərə çıxdığı, çamadanını belə özü ilə aparmadığı və ailəsinə xəbər vermədiyi açıqlanıb.

Uzun müddətdir təyyarə səfərinə çıxmadığını bildirən qadın son dəfə nə vaxt təyyarə ilə getdiyini xatırlamadığını deyib və narahatlıqdan əziyyət çəkdiyini bildirib. Qadın sərnişin təyyarədə etdiklərini xatırladığını bildirib və "Birdən çox narahat oldum. Nəfəs almaqda çətinlik çəkirdim və qapını açmaq istədim. Mən normalda belə davranan biri deyiləm", - deyə bildirib.

Bəzən əsəb sarsıntısı keçirən, bəzən də sərxoş olan sərnişinlərin təyyarənin qapılarını açmağa cəhd etməsi xəbəri yeni deyil.

Təyyarənin qapılarının mexaniki qıfıllarla işlədiyini bildirən mütəxəssislər, uçuş zamanı təyyarənin içərisi ilə xaricindəki təzyiq fərqinə də diqqət edib və uçuş zamanı normal sərnişinin qapıları açmasının mümkün olmadığını bildiriblər.

Kokpit qapılarının adətən uçuş boyu kilidli olduğunu bildirən mütəxəssislər təhlükəsizlik sistemlərinin pilot oturacağından idarə olunduğunu, sistemin müvəqqəti olaraq sıradan çıxması halında yalnız təhlükəsizlik kodunu bilən ekipajın kabinəyə daxil ola biləcəyini qeyd ediblər.

**Turan**



# Dünya Çempionatında maraqlı görüntü!

### Toplar şarjla doldurulur, saniyədə 500 informasiya toplayır

**Qətərdə keçirilən Dünya Çempionatı bütün həyəcanı ilə davam edir. Sosial mediada matçlarda istifadə edilən toplarla bağlı bir şəkil diqqət çəkib.**



Dünyanın ən yaxşı futbolçuları ölkələri üçün mübarizə apararkən, oynanılan hər matç texnologiya baxımından çox yaxından izlənilir və təhlil edilir. Ən maraqlı isə çempionatda istifadə edilən "Al Rihla" adlı toplardır.

İçərisində sensorların olduğu və bir çox texnoloji imkanlar təqdim edən topun fotosu sosial mediaya düşüb, futbolsevərlər tərəfindən heyrətlə qarşılanıb.

Qeyd edək ki, DÇ-2022-nin H qrupunun ikinci oyununda Portuqaliya Uruqvayla üz-üzə gəlib. "Lüsail" stadionunda maraqlı mübarizədə matçın 54-cü dəqiqəsində vurulan qol hətta FİFA-nı da təəccübləndirib.

Portuqaliyalı futbolçular ayaq ötürmələri ilə rəqibin qapısına gəliblər. Bruno Fernandes sol cinahda topa yaxınlaşdıqdan sonra cərimə meydançasına çarpaz ötürmə edib. Kristian Ronaldo topa toxunmaq istəyib və top toru silkələyib. Bununla belə, qolu Fernandes və ya Ronaldonun vurması müzakirələrə səbəb olub.

FİFA Portuqaliyanın qolunu ilk olaraq Kristian Ronaldonun adına yazıb. Lakin əlavə araşdırmalardan sonra 37 yaşlı ulduzun topa toxunmadığı müəyyənləşib. FİFA-nın qərar yenilənməsi ilə Bruno Fernandesin toru havalandırdığı qeydə alınıb.

İstehsalçı "Adidas" firması topun içindəki sensorların köməyi ilə Ronaldonun topa toxunmadığını və qolun sahibinin Fernandes olduğunu açıqlayıb.

Məlum olur ki, Dünya Çempionatında ulduzların istifadə etdiyi topların içərisində sensorlar var. Topun mərkəzində yerləşən sensor saniyədə 500 məlumat toplayır və bunu məlumat mərkəzlərinə göndərir. Bu həm yarımavtomatik ofsayd sistemi, həm də oyunçuların qiymətləndirilməsi üçün vacibdir.

"Al Rihla" adlı topun içindəki texnologiya futbolsevərlərin marağına səbəb olub. Sosial mediaya düşən foto minlərlə dəfə paylaşılıb və bəyənilib. Ən maraqlısı isə odur ki, fotoda topların cib telefonu kimi şarj edildiyi görünür.

Topun içərisində olan kiçik bir batareya sensorlara lazım olan elektrik enerjisini verir. Batareyanın ömrünün altı saat aktiv olduğu, istifadə edilmədikdə 18 günə qədər dolu qaldığı bildirilir.

## Yaponiyada qardan enerji əldə ediləcək

### Bu üsulu iqlim xüsusiyyətinə görə qarın bol olduğu Aomori şəhərində sınaqdan keçirməyə hazırlaşırlar



**Yaponiyada qardan elektrik enerjisini necə əldə etmək yollarını fikirləşiblər. Bu üsulu iqlim xüsusiyyətinə görə qarın bol olduğu Aomori şəhərində sınaqdan keçirməyə hazırlaşırlar.**

Texnologiya qar kütləsinin daxilində və onun səthində hərarətin müxtəlifliyinə əsaslanıb. Regionda, həmçinin isti çeşmələr vardır ki, bunlar da effekti gücləndirməyə şərait yaradacaq.

Azərtac "Vokruq sveta" nəşrinə istinadla xəbər verir ki, sistem bərpaolunan enerji hasilatında istifadə olunan günəş batareyaları və ya külək mühərrikləri kimi təbii resurslar siyahısını tamamlayır. Lakin müəlliflər hesab edirlər ki, onların yaratdığı "Snow power" (ingilis dilindən hərfi tərcümədə "qarın gücü") qurğusu daha effektli olacaq.

Artıq dekabr ayında işə salınacaq texnologiya gələn ilin mart ayınadək fəaliyyət göstərməlidir. Kommunal xidmətlər qarı küçələrdən keçmiş məktəb binasında quraşdırılan xüsusi hovuza daşıyacaqlar. Orada qar təbəqələrinə istilikötürücü borucuqlar quraşdırılacaq, onların üstündəki havanı isə günəş təbii yolla qızdıracaq. Qar kütlələri ilə xaricdəki hava arasındakı temperatur fərqindən onu fırladıb elektrik enerjisi istehlak edəcək turbinin daxilindəki konveksiya cərəyanının yaradılması üçün istifadə olunur.

Yaponiyalı mühəndislər qeyd edirlər ki, temperaturun daha çox dəyişməsi üçün isti çeşmələrdən gələn istidən istifadə olunması da planlaşdırılır.

"Qar" sistemini ixtira edənlər daha əvvəl okeanın üst və alt qatındakı suları arasında olan temperatur fərqindən enerji almaq kimi analoji üsul fikirləşmişdilər. Onların hesablamalarına görə, belə enerji 1 kilovat-saat üçün cəmi 20 yenə başa gələcək ki, bu da külək, istilik və ya mazutdan əldə edilən enerjidən ucuzdur. Yeni texnologiyanın müəllifləri vurğulayırlar ki, qardan istifadə edilən halda temperatur fərqi daha güclü olacaq, bu səbəbdən sistem daha effektli olmalıdır.

## Pele xəstəxanaya yerləşdirilib



**Əfsanəvi braziliyalı futbolçu Pele xəstəxanaya yerləşdirilib.**

APA xəbər verir ki, bu barədə ESPN telekanalı məlumat yayıb.

Onun son aylar aldığı kimyəvi terapiyanın nəticəsiz qaldığı bildirilir. 81 yaşlı Pelenin Braziliyanın San-Paulu şəhərindəki xəstəxanalardan birinə yerləşdirildiyi qeyd olunub.